

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Müstəqil Azərbaycanın memarı" mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb**




3

SƏS

№ 071 (6754)

27 aprel 2023-cü il.
Qiymәti 60 qәpik

# Regionun enerji xəritəsini dəyişdirən ölkə - AZƏRBAYCAN




2

*Prezident İlham Əliyev: "Biz Avrasiyanın enerji xəritəsini yenidən cızırıq"*

# Separatçılar üçün SONUN BAŞLANĞICI

7



"Laçın yolunda post qurmaq Azərbaycan üçün zəruri və məcburi idi"



15

**Dindarlıq, yoxsa dəb?**



14

**Yollarda vətəndaş müharibəsi**



14

**Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsində Azərbaycan Bayrağı ucaldılıb**



**Papirosum yana-yana...**



11

# Regionun enerji xəritəsini dəyişdirən ölkə - AZƏRBAYCAN

*Prezident İlham Əliyev: "Biz Avrasiyanın enerji xəritəsini yenidən cızırıq"*




***Azərbaycan Prezidenti İlham Əliyev Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində söyləyib ki, biz fəal enerji diplomatiyamızı davam etdiririk. Neft meqalayihələrindən tutmuş, hazırda qaz, sonra yaşıl hidrogenə qədər layihələr var.***

Dövlətimizin başçısı onu da qeyd edib: "Bütün bunlardan əlavə, bizim aramızda güclü ötürmə xətləri olacaq və bu, tamamilə yeni vəziyyət yaradacaq. Bir sözlə, biz Avrasiyanın enerji xəritəsini yenidən cızırıq".

Düz 7 il öncə -2016-cı il sentyabrın 1-də Azərbaycan tarixində mühüm hadisə olan Bakı Dəniz Özüllər Zavodukında ilk dəfə olaraq tikintisnin 100 faizi ölkə daxilində həyata keçirilən "Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimində çıxış edən Prezident İlham Əliyev demişdir: "Bu gün arğıq Azərbaycan qaz dövlətləri sırasına daxil olur. Hasilat, nəqliyyat artacaq, Azərbaycan gələcəkdə tranzit funksiyalarını da oynaya bilər".

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏZMKARLIĞI VƏ PREZİDENT İLHAM ƏLİYEVİN QƏTİYYƏTİ SAYƏSİNDƏ AVRASİYANIN ENERJİ XƏRİTƏSİNİ DƏYİŞDİRƏN ÖLKƏ

Bəli, bu gün həqiqətən da Azərbaycanın adı qaz ixrac edən ölkələr sırasında çəkilir aə tərəfdaş ölkələrin sayı getdikcə artır. Bunun əsas səbələrindən biri də Azərbaycanın etibarlı tərəfdaş funksiyasını uğurla yerinə yetirməsidir. Bu ulu öndər Heydər Əliyevin əzmkarlığı və İlham Əliyevin qətiyyəti sayəsində reallaşıb.

Bəli, bu gün Azərbaycanın beynəlxalq aləmdəki mövqeyinin getdikcə möhkəmləndirilməsi Prezident İlham Əliyevin müəyyənləşdirdiyi düzgün strategiyanın nəticəsidir. Azərbaycanın son illərdə Cənubi Qafqazda yaratdığı yeni reallıqların beynəlxalq aləmdə qəbulu baxımından xüsusi əhəmiyyət kəsb edir. Çoxşaxəli strateji tərəfdaşlıq səviyyəsinə yüksələn Azərbaycan-Bolqarıstan münasibətləri hazırda da inkişaf etməkdədir. Belə ki, aprelin 25-də Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstan Prezidenti Rumen Radevin rəsmi dəvəti əsasında həyata keçirilən səfəri ölkələr arasında arasında diplomatik münasibətlərin qurulmasının daha möhkəm olduğunun təsdiqləyir. Səfər zamanı Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir ki, Avropada cərəyan edən hadisələr səbəbindən enerji böhranının yaşandığı bir dövrdə Azərbaycanın "köhnə qitə" üçün əhəmiyyəti getdikcə çoxalır.

### AZƏRBAYCAN–BALKAN ÖLKƏLƏRİ MÜNASİBƏTLƏRİNDƏ YENİ SƏHİFƏ

Bəli, bu gün Balkan ölkələrinin liderləri tərəfindən Azərbaycanla əməkdaşlığa böyük maraq göstərilir. Xüsusilə də onların Azərbaycana səfərləri bunun bariz göstəricisidir. Bu baxımdan Albaniya Prezidentinin və Baş nazirinin, Serbiya Prezidentinin, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi çərçivəsində təşkil edilən tədbirlərdə iştirak etmək üçün Balkan ölkələrinin, o cümlədən Bolqarıstan Prezidenti Rumen Radevin Azərbaycana səfərlər etmələri, və Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana səfəri, səfər çərçivəsində keçirilən görüşlər xüsusi məna kəsb edir. Hazırda Azərbaycanın Balkan regionu ölkələri ilə münasibətlərində dinamizm müşahidə olunur, o cümlədən bu bölgənin bir parçası olan Bolqarıstanla əməkdaşlığı dinamik şəkildə inkişaf edir.

Bu xüsusda Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci ilin ikinci yarısında Bolqarıstana, Albaniyaya, Serbiyaya və Rumıniyaya səfərləri, 2023-cü ilin yanvarında Davos İqtisadi Forumu çərçivəsində Xorvatiya və Monteneqro Baş nazirləri ilə görüşləri, həmçinin bu ay Bosniya və Herseqovinaya rəsmi səfəri xüsusi qeyd olunmalıdır.

Və Prezident İlham Əliyevin Bolqarıstana işgüzar səfəri Azərbaycan–Balkan ölkələri münasibətlərində yeni səhifə, rəsmi Bakının Avropa İttifaqının enerji təhlükəsizliyində çəkisinin artmasına mühüm töhfə oldu. Prezident İlham Əliyevin ifadə etdiyi kimi: "Biz Avrasiyanın enerji xəritəsini yenidən cızırıq". Və Azərbaycan Prezidentinin Sofiyaya aprelin 25-dəki işgüzar səfəri və səfər çərçivəsində Azərbaycan və Bolqarıstan dövlət başçılarının iştirakı ilə "Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanma mərasimi, SOCAR-ın Bolqarıstandakı ofisinin açılışı və dövlət başçılarınını təkbətək görüşləri bir daha iki dost və tərəfdaş ölkələr arasında bu əməkdaşlığın daha da dərinləşməsini təsdiqləyir.

Bəli, Azərbaycan Prezidenti İlham Əliyevin həmişə olduğu kimi, yenə də daha irəli baxmağa üstünlük verir və Sofiyada bəyan etdi ki, "Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox güclü gələcəyi var". Göründüyü kimi, "Həmrəylik Halqası" təktərəfli layihə deyil, həm mənbə ölkə olaraq, həm də, eyni zamanda, reallaşmasında dövlətimizin başçısının xüsusi həlledici rol oynadığını nəzərə alaraq, heç şübhəsiz, prosesin flaqmanı Azərbaycandır.

### BİZ BU GÜN 21-Cİ ƏSRİN LAYİHƏSİNİ HƏYATA KEÇİRİRİK VƏ BU LAYİHƏ BÖYÜYÜR

Preztdent İlham Əliyev Anlaşma Memorandumunun imzalanma mərasimində çıxışında bildirmişdir ki, Azərbaycan Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan və İtaliyaya, bu ildən başlayaraq isə Rumıniyaya təbii qaz ixrac edir, ilin sonunadək isə Macarıstan və Slovakiya da Azərbaycandan qaz idxal edən ölkələrin sırasına qoşula bilər: "Bütün zəruri interkonnektorlar yerində olarsa, biz ilin sonunadək Macarıstan və Slovakiyaya qaz tədarükünə başlamağı planlaşdırırıq. Biz Albaniya ilə yerli qaz paylayıcı sisteminin tikintisi ilə bağlı danışıqlar prosesindəyik. Çünki Cənub Qaz Dəhlizi Albaniya ərazisindən keçir. Həmçinin "Həmrəylik Halqası" üzvü olaraq Slovakiya da əminəm ki, tezliklə bizim enerji sahəsində tərəfdaşımız olacaq. Biz qaz tədarükümüzün coğrafiyasını genişləndirərək 6 ölkədən ən azı 10 ölkəyə çatdıracağıq".

Dövlətimizin başçısı onu da vurğulayıb ki, Azərbaycan tərəfdaş ölkələrlə əməkdaşlığı davam etdirməyə və birlikdə bütün hədəflərə nail olmağa hazırdır: "Azərbaycan müstəqilliyinin bərpasından 3 ildən az bir müddət içində sonralar "Əsrin müqaviləsi" adlandırılacaq müqaviləni imzaladı və ilk dəfə xarici neft şirkətlərini Xəzər dənizində işləməyə, neft istehsal etməyə və kəşflərə dəvət etdi. Beləliklə, biz bu gün 21-ci əsrin layihəsini həyata keçiririk və bu layihə böyüyür. Ona görə də enerji sahəsində etibarlı tərəfdaş olan Azərbaycan əminliklə bizim bu yolumuzu davam etdirməyə və bütün hədəflərə nail olmağa hazırdır".

### AVRASİYANIN YENİ ENERJİ XƏRİTƏSİNİ TƏRTİB EDƏN ÖLKƏ - AZƏRBAYCAN

Bəli, bu gün Azərbaycan Avrasiyanın yeni enerji xəritəsini tərtib edir. Azərbaycan nəhəng enerji layihələrini reallaşdırmaqla Avrasiyanın yeni enerji xəritəsini tərtib edir. Dövlətimizin başçısı İlham Əliyev Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınması mərasimi çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində bir daha bu reallığı diqqətə çatdırmışdır ki, "Azəri-Çıraq-Günəşli" yatağının təcrübəsi göstərir ki, "Qarabağ" neft yatağı daha böyük potensiala malik ola bilər.

32 ilə yaxın müstəqillik tarixinə malik olan Azərbaycanın uğurları ulu öndər Heydər Əliyevin "Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz" fikirlərinin təsdiqi olmaqla yanaşı, eyni zamanda, bu gerçəkliyi də şərtləndirir ki, ölkəmiz regional əməkdaşlıqdan beynəlxalq əməkdaşlığa doğru addımlamağı əsas hədəf kimi qarşıya məqsəd qoyaraq bu istiqamətdə əhəmiyyətli layihələrə imza atır".

Bəli, bu gün Azərbaycan siyasi və iqtisadi baxımdan yüksəliş dövrünü yaşayır. Güclü dayaqlara malik Azərbaycan beynəlxalq arenada həm də etibarlı tərəfdaş ölkə kimi tanınır. Dövlət başçısı İlham Əliyevin qətiyyətli və səmimi xarici siyasət kursu Azərbaycanı ən yüksək tribunalarda tanıtdırmaqda davam edir. Və ərazi bütövlüyünü təmin etmiş Azərbaycan bu gün öz milli dövlət maraqlarını diktə etmək gücündədir. İqtisadi gücü və siyasi müstəqilliyi Azərbaycanı lider mövqeyə yüksəldib ki, bu da heç şübhəsiz ki, Prezident İlham Əliyevin yürütdüyü siyasətin məntiqi nəticəsidir.

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana işgüzar səfəri bir həqiqəti yenidən təsdiqlədi ki, Azərbaycan beynəlxalq arenanın nüfuzuna və gücünə görə birmənalı olaraq qəbul olunan, öz sözünü açıq şəkildə ifadə edən dövlətlərdəndir. Və Azərbaycan Prezidenti İlham Əliyev bu gün dünya liderləri sırasında uğurlu siyasəti və qətiyyəti ilə Azərbaycan özünün siyasi və iqtisadi baxımdan yüksəliş dövrünü yaşayır və Azərbaycan əməkdaşlığın coğrafiyasını genişləndirməklə etibarlı tərəfdaş kimi nüfuzunu artırır, dünya birliyinin layiqli üzvü kimi söz sahibinə malik olduğunu təsdiqləyir. Çünki, Azərbaycan Prezidenti İlham Əliyevin həmişə olduğu kimi, yenə də daha irəli baxmağa üstünlük verir və Sofiyada bəyan etdiyi kimi: "Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox güclü gələcəyi var".

***RƏFİQƏ KAMALQIZI***

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzalayıb.

# Heydər Əliyev-100



# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Müstəqil Azərbaycanın memarı" mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb





***Aprelin 26-da "Gülüstan" Sarayında Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, Bakı Dövlət Universitetinin və Türkiyənin Ankara Universitetinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Müstəqil Azərbaycanın memarı" mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb.***

Əvvəlcə konfrans iştirakçıları Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, məzarın önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib, məzarın önünə gül dəstələri düzülüb.

Konfransın açılış mərasimində Dövlət Himni səsləndirilib. Sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, "Heydər Əliyev İli" çərçivəsində respublikamızda və ölkə xaricində müxtəlif tədbirlər keçirilir, yeni, müasir və müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, müdrik dövlət xadimi Heydər Əliyevin zəngin dövlətçilik irsinə hərtərəfli nəzər salınır və Ulu Öndərin əbədiyaşar ideyaları geniş ictimaiyyətin diqqətinə çatdırılır: "30 ildə zəngin və şərəfli inkişaf yolu keçərək Azərbaycanın tərəqqisində müstəsna rol oynayan Yeni Azərbaycan Partiyası tərəfindən də "Heydər Əliyev İli" çərçivəsində müxtəlif tədbirlərin - müsabiqələrin, aksiyaların, görüşlərin, elmi-praktik konfransların keçirilməsi nəzərdə tutulmuşdur. Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Heydər Əliyev şəxsiyyətinin müasir dövlətçilik tariximizdə müstəsna yerinin və rolunun tədqiq olunması, dahi şəxsiyyətin ideyalarının yeni nəslə aşılanması məqsədilə respublikamızın bütün bölgələrində tanınmış ictimaiyyət nümayəndələrinin iştirakı ilə silsilə tədbirlər artıq həyata keçirilməkdədir".

Tahir Budaqov söyləyib ki, Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, Bakı Dövlət Universiteti və Ankara Universitetinin birgə təşkilatçılığı ilə "Müstəqil Azərbaycanın memarı" mövzusunda keçirilən bugünkü beynəlxalq elmi konfrans da Heydər Əliyevin xalqımız qarşısında müstəsna xidmətlərinin, Ulu Öndərin bizə bəxş etdiyi müstəqil Azərbaycanın inkişaf yolunun hərtərəfli öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

YAP Sədrinin müavini qeyd edib ki, müasir müstəqil Azərbaycan Heydər Əliyevin zəngin milli-mənəvi dəyərlərə və çoxəsrlik dövlətçilik ənənələrinə malik xalqımıza ən böyük tarixi və mənəvi-siyasi mirasıdır: "Ötən əsrin 90-cı illərinin əvvəlində dövlət müstəqilliyini yenicə bərpa etmiş, amma "ya olum, ya ölüm" dilemması qarşısında olan Azərbaycan xalqı düzgün seçim etməklə ölkənin xilasına, rifah və tərəqqi yoluna çıxmasına, respublikamızın əsl müstəqillik qazanmasına nail oldu. Söhbət o zamana qədər Azərbaycan SSR-in rəhbəri kimi respublikamızın intibahını təmin edən və gələcək müstəqilliyinin əsaslarını formalaşdıran, Sovet İttifaqı dövründə Azərbaycan dilinin respublika konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olan, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi ölkəmizin mənafelərini qətiyyətlə qoruyaraq xalqımızın rifahı və firavanlığı naminə vacib işlər görən, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri kimi blokada vəziyyətində olan muxtar respublikanı ağır sosial-iqtisadi vəziyyətdən və tənəzzüldən xilas edərək dirçəlişini təmin edən və Türkiyə başda olmaqla bir sıra xarici dövlətlərlə beynəlxalq əlaqələrini genişləndirən, ilk dəfə Naxçıvanda üçrəngli bayrağımızın qaldırılmasına müvəffəq olan və bütövlükdə ölkəmizə mühüm nailiyyətlər qazandıran Heydər Əliyevin xalqın təkidli tələbi ilə tarixi-siyasi məsuliyyəti öz üzərinə götürməsindən, respublikamızı siyasi təlatümlərdən, iqtisadi böhrandan, regional təcrid vəziyyətindən xilas edərək inkişaf yoluna çıxarmasından, güclü – qüdrətli və nüfuzlu dövlətə çevirməsindən gedir. Məlumdur ki, ölkədə iqtisadi böhran və siyasi hərc-mərcliyin hökm sürdüyü, Ermənistan tərəfindən respublikamızın ərazi bütövlüyünə qəsd edildiyi – torpaqlarımızın ard-arda işğal olunduğu ağır, acınacaqlı və mürəkkəb bir şəraitdə Azərbaycan xalqı çıxış yolunu qətiyyətli və vətənpərvər, zəngin idarəetmə təcrübəsinə malik lider – dahi şəxsiyyət Heydər Əliyevin ətrafında sıx birləşməkdə görmüşdü. Təbii ki, xalqın Heydər Əliyevə inamı təsadüfi deyildi, konkret reallıqlara əsaslanırdı, Ulu Öndərin ayrı-ayrı dövrlərdə və müxtəlif vəzifələrdə xalqımız qarşısındakı misilsiz xidmətlərindən qaynaqlanırdı. Bu inam və etimadın bariz təzahürü kimi Azərbaycan xalqının qabaqcıl nümayəndələrindən olan 91 nəfər ziyalının müraciəti əsasında 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması xalq-Lider birliyi və milli həmrəylik şəraitində qarşıda duran milli vəzifələrin yerinə yetirilməsində müstəsna rol oynadı".

Ardı Səh. 4

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Müstəqil Azərbaycanın memarı” mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb







Əvvəli-Səh-3

Tahir Budaqov vurğulayıb ki, müdrik dövlət xadimi Heydər Əliyevin liderliyi ilə Yeni Azərbaycan Partiyası dövlətimizin maraqlarına uyğun prinsipial mövqe ortaya qoyaraq qısa zamanda xalqın böyük dəstəyini qazandı: “Heydər Əliyev şəxsiyyətinə sarsılmaz inam Yeni Azərbaycan Partiyasının da yüksək nüfuz qazanmasını şərtləndirdi. 1993-cü ilin 3 oktyabr tarixində keçirilən seçkilərdə xalqın müdrik seçimi – böyük etimadı əsasında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev milli maraqlardan irəli gələn strateji hədəfləri uğurla reallaşdırmaqla Azərbaycanı müstəqil ölkəyə çevirdi, başqa sözlə, müstəqillik de-fakto təmin olundu. Həyata keçirilən uzaqgörən və məqsədyönlü siyasət nəticəsində sabitlik və təhlükəsizlik mühitinin yaradılması, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması və münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında inkişaf etdirilməsi, beynəlxalq təşkilatlarda yüksək fəallığın təmin olunması və digər mühüm addımlar müstəqilliyin möhkəmləndirilməsini, Azərbaycanın regionda rolunun artmasını, qlobal siyasi arenada imkanlarının genişlənməsini təmin etdi, ölkəmiz beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevrildi. İnkaredilməz həqiqətdir ki, Ümummilli Liderin xalqın firavan gələcəyi və dövlətin parlaq perspektivləri naminə müstəsna xidmətlərindən biri siyasi varisliyin təmin olunmasıdır. Ulu Öndərin siyasi varisi olan cənab İlham Əliyev 2003-cü ildə xalqın iradəsi ilə Prezident seçildikdən sonra ölkəmizin inkişafında yeni mərhələnin əsası qoyuldu. Azərbaycan dövləti öz iqtisadi, siyasi, hərbi gücü və xalqımızın mübarizə ruhu, əzmkar mövqeyi sayəsində yeni zirvələrə doğru inamla irəliləməyə başladı, bütün sahələrdə möhtəşəm və tarixi əhəmiyyətə malik uğurlar əldə olundu. Ölkəmizin ərazi bütövlüyünün bərpa olunması – 44 günlük Vətən müharibəsində qazanılmış şanlı qələbə sayəsində torpaqlarımızın işğaldan azad edilməsi isə Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin uğurlu və uzaqgörən siyasətinin real nəticəsidir. Bir sözlə, Prezident İlham Əliyevin Heydər Əliyev ideyalarına əsaslanan, milli maraqlara və müasir çağırışlara cavab verən ardıcıl siyasəti Azərbaycanın bugünkü inkişafını təmin, gələcək strateji hədəflərinin isə gerçəkləşməsini mümkün edən başlıca amildir”.







“Azərbaycan xalqı hər zaman Heydər Əliyev siyasətinə, Onun parlaq ideyalarına sədaqət nümayiş etdirmişdir. Cəmiyyətin bütün təbəqələrini təmsil edən vətənpərvər insanlar kimi, Bakı Dövlət Universitetində çalışan qabaqcıl elm xadimləri, ziyalılar da Ulu Öndərin ideyalarının reallaşmasında mühüm rol oynamış, Prezident İlham Əliyevin milli maraqlara əsaslanan siyasətinə qətiyyətli dəstək ifadə etmişlər. Bu, Ümummilli Liderimizin məzunu olduğu və fəaliyyətinə hər zaman böyük önəm verdiyi, yüksək diqqət və qayğı göstərdiyi Bakı Dövlət Universitetinin milli məsələlərdə və tarixi-siyasi məsuliyyət anlarında öz sözünü deyən ziyalılar ordusuna malik olduğunu təsdiqləyən təkzibedilməz faktdır. Xüsusi vurğulamaq istəyirəm ki, bu gün tarixi ənənələrə və zəngin elmi təcrübəyə malik olan Bakı Dövlət Universitetinin elm və təhsil sahəsi ilə yanaşı, siyasi proseslərdə də fəal rol oynayan, prinsipial mövqeyi və sağlam əqidəsi ilə fərqlənən nüfuzlu alimləri partiyamızın sıralarında təmsil olunurlar. Yeni Azərbaycan Partiyasının üzvü olan elm xadimlərinin dövlətçilik, azərbaycançılıq, vətənpərvərlik prinsipləri əsasında çalışmaları, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmələri Heydər Əliyev irsinə və ideyalarına sədaqət nümunəsi olmaqla yanaşı, Azərbaycanın inkişafına, qarşıda duran milli hədəflərin reallaşmasına önəmli töhfədir”,- deyən YAP Mərkəzi Aparatının rəhbəri bildirib ki, bu gün dahi şəxsiyyət, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ruhu şaddır. Çünki Onun vəsiyyəti siyasi varisi, dövlətimizin başçısı, partiyamızın Sədri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən yerinə yetirilmişdir: Azərbaycan Ulu Öndərin arzuladığı - görmək istədiyi kimi qüdrətli, əzəmətli və qalib dövlətdir.

*Ardı Səh. 5*



# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Müstəqil Azərbaycanın memarı" mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb




Əvvəli-Səh-4

"Azərbaycan xalqı müstəqil dövlətimizin banisi, dahi şəxsiyyət, müdrik dövlət xadimi Heydər Əliyevin əziz xatirəsini daim ehtiramla və minnətdarlıqla yad edəcək, Ulu Öndərin əziz xatirəsini qəlbində əbədi yaşadacaqdır. Heydər Əliyev ideyalarına sədaqət nümayiş etdirərək və Prezident İlham Əliyevin ətrafında sıx birləşərək daha güclü Azərbaycan naminə davam etdirdiyiniz şərəfli və məsuliyyətli fəaliyyətinizdə hər birinizə yeni-yeni uğurlar arzulayıram", - deyə YAP Sədrinin müavini vurğulayıb.




Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev bildirib ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş bu konfrans iki gün ərzində 3 bölmədə işini davam etdirəcək, 110-dan çox məruzə dinləniləcək. Konfransın işində ölkəmizin müxtəlif qurumlarından olan alimlərlə yanaşı, qardaş Türkiyə və İsraildən də qonaqlar iştirak edir. Onun sözlərinə görə, konfransın plenar iclasının Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilən bu möhtəşəm sarayda keçirilməsinin də böyük rəmzi mənası var: "2023-cü ilin ölkəmizdə "Heydər Əliyev ili" elan edilməsini xalqımız xoş ovqat və böyük sevinc hissi ilə qarşılayır. Bu gün qədirbilən xalqımız onu ağır sınaqlardan müdrikliklə, ağlın, idrakın yenilməz gücü ilə çıxarmış, işığa, nura qovuşdurmuş ulu öndər Heydər Əliyevi minnətdarlıqla yad edir. Əziz və unudulmaz xatirəsi hər zaman bizimlə olan Ümummilli Liderimizin mənəvi ömrünün 100-cü zirvəsindən ötən illərə baxdıqca bir daha şahid oluruq ki, XX əsrin 70-ci illərindən başlayaraq xalqımızın və dövlətimizin əldə etdiyi bütün uğurların təməlində məhz Heydər Əliyev siyasəti dayanır – bu fenomenal şəxsiyyətin işıqlı əməlləri, parlaq siması dayanır".




Elçin Babayev qeyd edib ki, həyatının məqsədi, başlıca amalı Azərbaycanın müstəqilliyi, doğma xalqının xoşbəxtliyi olan Ulu Öndər bütün mənalı ömrünü bu məqsədə nail olunmasına sərf edib. Ümummilli Lider öz soy-kökünə, milli-mənəvi dəyərlərimizə söykənərək misilsiz xidmətlər göstərib, bu müqəddəs missiyanı uğurla, şərəflə, cəsarət və mərdliklə yerinə yetirib. Dövlət başçısının 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncamında qeyd edildiyi kimi, "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə aparaaraq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur".

BDU-nun rektoru diqqətə çatdırıb ki, müdrik xalqımız hələ ötən əsrin 70-ci illərindən başlayaraq Ulu Öndər Heydər Əliyevin Azərbaycanın taleyində yeni mərhələnin başlanğıcını qoyduğunu, Azərbaycanın müstəqilliyə gedən yolunun təməllərini formalaşdırdığını çox yaxşı dərk edir: "Məhz həmin illərdən başlayaraq Azərbaycan Heydər Əliyevin inanılmaz səyləri ilə sovetlər birliyinin geridə qalmış respublikasından sənayenin inkişaf etdiyi bir respublikaya çevrildi. Ölkəmiz üçün mürəkkəb bir dövrdə, onun parçalanmaq, bölünmək təhlükəsi ilə üzləşdiyi illərdə Ulu Öndər Heydər Əliyev yenidən xalqımızın nicatı oldu. O, xalqın çağırışı ilə yenidən və bu dəfə daha böyük əzm və inamla Azərbaycana rəhbərliyə qayıdaraq xilaskarlıq missiyasını davam etdirdi. 1993-cü ilin 15 iyunu – müdrik xalqımızın haqlı olaraq Milli Qurtuluş Günü adlandırdığı bu tarixi gün xalqımızın və dövlətimizin taleyində dönüş nöqtəsi oldu".

"Ulu Öndər tərəfindən tez bir zamanda qüdrətli Azərbaycan dövlətinin inkişaf strategiyası müəyyən edildi. Bu strategiyanın siyasi, iqtisadi, hərbi, sosial sferalarda uğurla gerçəkləşdirilməsi üçün Ulu Öndər tərəfindən misilsiz addımlar atıldı. Azərbaycan etibarlı tərəfdaş kimi dünyada qəbul olundu. Ölkəyə yatırılan investisiyalar, həyata keçirilən beynəlxalq layihələr, Ulu Öndər Heydər Əliyevin misilsiz neft strategiyası dövlətimizi qüdrətləndirdi. İllər sonra möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə qazanacağımız tarixi Qələbənin təməlləri yaradıldı. Ulu öndər Heydər Əliyevin ikinci dəfə ölkəyə rəhbərlik etdiyi 1993-2003-cü illər müstəqil Azərbaycanın tarixinə qızıl dövr kimi yazıldı. Ölkəmizin beynəlxalq nüfuzu, iqtisadi və hərbi qüdrəti yeni, yüksək mərhələyə qədəm qoydu",- deyən Elçin Babayev əlavə edib ki, Ulu Öndər Heydər Əliyevin xalqımıza ən böyük töhfəsi isə, heç şübhəsiz ki, bu gün dünya siyasətinin fenomeni olan cənab İlham Əliyev kimi siyasi varisini yetişdirməsi oldu. 2003-cü ildə xalqımızın birmənalı dəstəyi ilə Prezident seçilən cənab İlham Əliyev ötən illər ərzində sarsılmaz təməlləri Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik siyasətini əzmlə inkişaf etdirərək ölkəmizi dünyanın qüdrətli dövlətlərindən birinə çevirdi, müqəddəs ata vəsiyyətini, işğal olunmuş ərazilərimizin azad edilməsi ilə bağlı xalqımızın ən ülvi və müqəddəs arzusunu şərəflə yerinə yetirdi. 2020-ci ildə qardaş Türkiyənin siyasi dəstəyi, müdrik xalqımızın sarsılmaz birliyi, qəhrəman əsgərlərimizin qanı və canı, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin hərbi, siyasi və informasiya cəbhələrindəki mahir sərkərdəliyi ilə cəmi 44 gün ərzində 30 illik işğal bitdi. Xalqımız müzəffər xalq olduğunu bütün dünyaya sübut etdi.

Elçin Babayev vurğulayıb ki, xalqımız Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini ona olan böyük sevgi və ehtiram hissi ilə yanaşı, müzəffər xalq olaraq böyük qürur, fəxarət və möhtərəm Prezidentimiz cənab İlham Əliyevə minnətdarlıq hissləri ilə qarşılayır: "Eyni zamanda, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Ulu Öndərin tükənməz irsinin tədqiqi və təbliği sahəsindəki əvəzsiz xidmətlərini xalqımız yüksək qiymətləndirir. Bu gün biz qürur hissi ilə onu da qeyd edirik ki, Ulu Öndərin hər zaman sonsuz diqqət və qayğı ilə yanaşdığı, "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, eyni zamanda, Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı adlandırdığı Bakı Dövlət Universitetinin kollektivi də bütün xalqımız kimi 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncamı rəğbətlə qarşılayır, həmişə olduğu kimi, bu yubiley günlərində də Ulu Öndərin əziz xatirəsini böyük hörmət və ehtiramla yad edir".




Rektor çıxışını dövlət başçısının 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Sərəncamında qeyd olunan "Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir" fikri ilə bitirib.

Daha sonra mövzu ilə bağlı videoçarx nümayiş olunub.

Konfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini Əli Əhmədov bildirib ki, xalqımız Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini böyük coşğu və ehtiramla yad edir: "Bu, xalqımızın Heydər Əliyevə, onun şəxsiyyətinə və tarixi xidmətlərinə verdiyi böyük qiymətin təzahürüdür, digər tərəfdən isə, xalqın milli dövlətçiliyə ehtiramının ifadəsidir.

Ardı Səh. 6

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Müstəqil Azərbaycanın memarı” mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb

Əvvəli-Səh-5

Zaman keçdikcə Heydər Əliyevin tarixi xidmətlərinə və şəxsiyyətinə verdiyimiz qiymət daha kamil olacaqdır. Zaman bu deyilənlərin həqiqət olduğunu isbat etdi. Çünki ötən illər ərzində Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan daha qüdrətli dövlət oldu, daha güclü ölkə kimi dünya birliyində özünü təsdiq etdi”.

YAP Sədrinin müavini söyləyib ki, Ümummilli Lider Heydər Əliyevin ideyaları daim yaşayacaq. Çünki bu ideyalar Azərbaycanın tərəqqisinin və yüksəlişinin əsasını təşkil edir: “Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi illərdə görülən işlərə, xalqımızın həyatında baş verən əsaslı dəyişikliklərə nəzər salsaq, bu fikri təsdiqləyən kifayət qədər faktlar söyləmək mümkündür. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra respublikamızda sürətli inkişaf başladı. 1969-cu ildən sonra Ulu Öndərin həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan tamamilə dəyişdi, özünə inamı artdı, dinamik inkişaf yoluna çıxdı və xalq öz gələcəyinə inamla baxmağa başladı. Eyni zamanda, o dövrdə Heydər Əliyevin uğurlu siyasəti nəticəsində milli iradənin güclənməsi Azərbaycanın gələcək müstəqilliyinə gedən yolun əsaslarını təşkil edirdi”.

“1993-cü ilə qədərki və ondan sonrakı Azərbaycan gözlərimiz qarşısındadır. 1990-cı illərin əvvəlində respublikamızda total böhran hökm sürürdü, o vaxtkı hakimiyyət Azərbaycanı məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Belə bir şəraitdə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı zərurətə çevrildi. O zamana qədər xalq Heydər Əliyevi qurucu lider kimi qəbul edirdisə, bu dəfə Ulu Öndər xilaskarlıq missiyasını yerinə yetirdi. Xaos, anarxiya, ümidsizlik içərisində olan, dərin böhran keçirən Azərbaycanda məhz Ulu Öndərin hakimiyyətə qayıdışından sonra, Onun qətiyyətli islahatlar strategiyası nəticəsində əmin-amanlıq bərqərar oldu, dinamik inkişaf təmin edildi” ,- deyə Əli Əhmədov vurğulayıb.

Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən danışan Baş nazirin müavini söyləyib ki, Azərbaycanın uğurlu inkişafı məhz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət nəticəsində təmin edilib: “Ümummilli Liderin Azərbaycan xalqı və dövləti qarşısında xidmətləri o qədər böyükdür ki, Heydər Əliyevin xatirəsi hər gün, hər zaman anılır. Azərbaycanın hər bir guşəsində Heydər Əliyevin izi görünür, hər bir sahənin inkişafında Ulu Öndərin müəyyənləşdirdiyi siyasət özünü göstərir. Bu gün Azərbaycan Heydər Əliyev ideyaları əsasında uğurla, qürurla inkişaf edir. Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət, dəyərlər, strategiya Azərbaycan xalqına xidmət edir”.

Əli Əhmədov diqqətə çatdırıb ki, bu gün Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun sözlərinə görə, hazırda Azərbaycan güclü, qüdrətli, beynəlxalq aləmdə nüfuzlu bir dövlətə çevrilib: “Məhz Azərbaycan dövlətinin möhkəm təməllər üzərində qurulmasının nəticəsidir ki, daha da güclənirik, beynəlxalq müstəvidə ölkəmizin nüfuzu daha da artır. Bu gün ölkəmizlə hesablaşırlar. Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüzün bərpa edilməsi dövlətimizin gücünü daha da artırıb. Heydər Əliyev siyasəti bundan sonra da uğurla davam etdiriləcək”.

Daha sonra çıxış edən elm və təhsil naziri Emin Əmrullayev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafında müstəsna rolu var: “Təhsil haqqında danışarkən böyük hədəflərdən bəhs edirik. Xüsusi qeyd etmək lazımdır ki, 1920-ci illərdə ali təhsillilərimizin sayı olduqca az olub. Ölkəmizin ötən 100 il ərzində təhsil sahəsində əldə etdiyi nailiyyətlər unikal nəticədir”.

Emin Əmrullayevin sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin təhsil şəbəkəsinin artırılmasında, Azərbaycan vətəndaşlarının keçmiş Sovet İttifaqının ali məktəblərində təhsil almasında rolu təqdirəlayiqdir. Nazir qeyd edib ki, azərbaycandilli təhsil şəbəkələrinin genişləndirilməsi, ali təhsil kontingentinin artırılması təhsilimizin sonrakı dövrlərinə, bu gününə əsaslı şəkildə təsir edib: ”Ulu Öndərin ölkəmizə rəhbərliyi dövrü təhsilin qızıl dövrüdür. O dövrdə məktəb şəbəkəsi böyüdü, ucqar kəndlərdə məktəblər fəaliyyətə başladı. Ötən əsrin əvvəlində bir neçə min ali təhsilli insan var idisə, 70-ci illərdə bu rəqəm yüz minə çatdı. Yəni Ulu Öndər Heydər Əliyevin 1970-ci illərdə ali təhsillilərin sayının artırılmasında böyük rolu var. Məhz bu dövrdə Azərbaycanda elm və təhsil sahəsində müsbət dinamikanın təməli qoyulub. Azərbaycan dilində tədris verən ümumi təhsil müəssisələrinin sayının artırılması və bu kimi irəliləyişlər məhz Ulu Öndərin adı ilə bağlıdır. 15 minə yaxın gəncin respublikadan kənarda – keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almasının dəstəklənməsi məhz Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə olub”.



Nazir diqqətə çatdırıb ki, Ulu Öndərin azərbaycanlı tələbələrin xaricdə təhsilinə dəstəyi Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş Dövlət Proqramı ilə davam etdirilib. 2007-2015-ci illəri əhatə edən Dövlət Proqramına əsasən 3500-ə qədər gəncimiz xaricdə nüfuzlu ali məktəblərdə təhsil alıb: “Yaxın vaxtlarda xaricdə təhsil alan azərbaycanlılardan ibarət forumun keçirilməsi nəzərdə tutulur. Bu il Böyük Britaniya və İsrail universitetləri ilə ikili proqramların hazırlanmasını planlaşdırırıq”.

“Son illərdə Azərbaycanda 3500-ə qədər məktəb tikilib və ya əsaslı təmir olunub. Bu gün Azərbaycan məktəblərində 300 mindən artıq şagird proqramlaşdırma dərslərinə, 100 mindən artıq şagird STEAM dərslərinə cəlb olunub. Ən böyük təhsil hadisələrindən biri ”Zəfər tarixi” fənninin tədrisidir. Bu fəndə Vətən müharibəsində qazanılan Qələbə, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli ordumuzun qəhrəmanlığı şagirdlərə aşılanır. Artıq işğaldan azad olunmuş ərazilərimizdə iki məktəbin bərpası, bir neçə məktəbin isə tikintisi başa çatmaq üzrədir. Bununla da “məcburi köçkün məktəbi” anlayışına son qoyulur. Bütün bu hadisələr Ulu Öndər Heydər Əliyevin ideyalarının təntənəsidir” ,- deyən Emin Əmrullayev qeyd edib ki, bu gün təhsilimizin təməlində azərbaycançılıq ideologiyası və milli-mənəvi dəyərlərimiz dayanır.

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş bu konfrans həmçinin Azərbaycanın müstəqilliyinin bərpası tarixinin bir daha düzgün qiymətləndirilməsi imkanıdır. Siyasi tarix elmi nöqteyi-nəzərindən Heydər Əliyevin, o cümlədən YAP-ın müstəqil Azərbaycan uğrunda mübarizədə yeri əvəzolunmazdır və düzgün dəyərləndirilməlidir.

Əli Hüseynli qeyd edib ki, xalqımız Heydər Əliyevin sovet Azərbaycanı və SSRİ rəhbərliyində olduğu dövrlərdə böyük uğurlar qazanmışdı. Ona görə də belə bir şəxsiyyətin – Heydər Əliyevin 1987-ci ildə sovet rəhbərliyindən ədalətsizcəsinə kənarlaşdırılması və təqib olunması Azərbaycan xalqının sovetlər birliyinə inamını sarsıtdı. Əslində, xalqın müstəqillik düşüncəsinə ilk təkan məhz bu hadisə oldu. “Heydər Əliyevin Moskvada siyasi fəaliyyətdən təcrid olunmasından sonra Qarabağda erməni separatizmi baş qaldırdı, ardınca soydaşlarımız Ermənistandan kütləvi deportasiya edildi, Sumqayıtda ermənilər təxribat törətdilər. Hadisələrin kulminasiyası 20 Yanvar faciəsi oldu. Hakimiyyətdə olanların və Xalq cəbhəsi fəallarının qorxaqlığı və xəyanəti fonunda Azərbaycan xalqının haqq səsini dünyaya çatdıran yalnız Heydər Əliyev oldu. Onun Moskvada cəsarətli bəyanatından ruhlanmış Azərbaycan xalqının müstəqillik mübarizəsi daha da vüsət aldı”,- deyən Əli Hüseynli əlavə edib ki, 1987-ci ildən başlayan tarixi uğursuzluqların və faciələrin qarşısını ala biləcək yeganə şəxs Heydər Əliyev idi. Yüz minlərlə insanın arzusu Heydər Əliyevin Bakıya dönüşü və xalqa rəhbərliyi idi. Belə bir tarixi şans Heydər Əliyev Moskvadan 1990-cı ilin yayında Bakıya gələrkən yarandı. Təəssüf olsun ki, o həm vaxtilə özünün vəzifə verdiyi Azərbaycanın o zamankı hakimiyyət nümayəndələri tərəfindən təqib olunmağa başladı. Eyni zamanda, xalq azadlıq hərəkatına yamaq kimi qoşulmuş cəbhəçilər də Heydər Əliyevi gözdən salmağa cəhd edirdilər, amma heç zaman buna nail ola bilmədilər.

Əli Hüseynli xatırladıb ki, 1990-cı illərin əvvəlində Azərbaycan dövlətçiliyi daha dərin bir uçuruma yuvarlandı. “Şuşanın və Laçının işğalına şərait yaratmaqla təxribat və dövlət çevrilişi nəticəsində AXC-Müsavat cütlüyü hakimiyyəti zəbt etdi, nəticədə ölkənin iqtisadiyyatı dağıldı və Qarabağın işğalı genişləndi. Sözsüz ki, Azərbaycan xalqı bütövlükdə özünün müstəqillik uğrunda apardığı mübarizəsinin bir qrup qaragüruh quldur tərəfindən heçə endirilməsi ilə barışmayacaqdı. Məhz buna görə də Bakı Dövlət Universitetinin nümayəndələrinin də təmsil olunduğu “91-lər” adlanan bir qrup ziyalı, əslində, bütün xalqın iradəsini həyata keçirərək Azərbaycanın müstəqillik mübarizəsinin tarixində dönüş yaratdı. Tarixi reallıq bundan ibarətdir ki, Heydər Əliyevin rəhbərliyi ilə yaranmış Yeni Azərbaycan Partiyası xalqın müstəqillik uğrunda apardığı mübarizənin layiqli aparıcı siyasi qüvvəsi kimi meydana çıxdı. Azərbaycan xalqının düşüncəsində əsl milli azadlıq və müstəqillik simvolu olmuş Heydər Əliyev nəhayət Azərbaycan dövlətinə rəhbərliyə qayıtdı”, -deyən Əli Hüseynli vurğulayıb ki, 1993-cü ilin 15 iyun tarixi - Milli Qurtuluş Günü həm də müstəqilliyimizin qurtuluşu oldu.

O bildirib ki, 1990-cı ilin 17 noyabrında Naxçıvanda Heydər Əliyevin qaldırdığı müstəqil üçrəngli Azərbaycan bayrağı məhz Onun davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri, Ali Baş Komandan İlham Əliyev tərəfindən 2020-ci ilin 8 noyabrında Şuşada ucaldıldı: “Şübhə yoxdur ki, YAP-ın bayrağı da hər zaman Azərbaycanın üçrəngli bayrağı ilə yanaşı dalğalanacaqdır. Heydər Əliyev və Yeni Azərbaycan Partiyası Azərbaycan tarixində müstəqillik uğrunda mübarizənin həqiqi carçısı kimi əbədi qalacaq”.

Konfransda çıxış edən Türkiyənin Ankara Universitetinin prorektoru Hasan Serdar Öztürk əvvəlcə universitetin rektoru, professor Necdet Ünüvarın salamlarını konfrans iştirakçılarına çatdırıb. O bildirib ki, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş beynəlxalq elmi konfrans böyük əhəmiyyətə malikdir: “Heydər Əliyev bütün ömrünü Azərbaycan və onun inkişafı üçün fəda etmiş dəyərli Liderdir. O təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının sahib olduğu liderlər arasında müstəsna yer tutur. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə Ankara Universitetini də ziyarət edib. 2001-ci ildə Heydər Əliyevə Ankara Universitetinin Fəxri diplomu təqdim edilib. O, Ankara Universitetinin rektorluğunun binası qarşısında ağac əkib. 2001-ci ildə əkilən bu ağac bizim üçün dahi şəxsiyyətin ziyarətindən qalmış əziz xatirələrdən biridir”.

Türkiyə ilə Azərbaycanın dost və qardaş ölkə olduğunu deyən qonaq münasibətlərimizin Ulu Öndər Heydər Əliyevin söylədiyi “Bir millət, iki dövlət” fəlsəfəsinə əsaslandığını vurğulayıb. O bildirib ki, Azərbaycan xalqının Qarabağ Zəfəri bütün Türk dünyasının qələbəsidir.

Beynəlxalq konfransın açılış mərasiminin sonunda xatirə fotosu çəkdirilib.

Daha sonra konfrans Milli Məclisin deputatı, Bakı Dövlət Universitetinin Ümumi Dilçilik kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü Nizami Cəfərovun moderatorluğu ilə plenar iclasla davam edib. Plenar iclasda Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, bp-nin Yaxın Şərq və Xəzər regionunda xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti, BDU-nun Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müəllimi Bəxtiyar Aslanbəyli, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, BDU-nun Konstitusiya hüququ kafedrasının müəllimi Ziyafət Əsgərov, İsrailin Key Pedaqoji İnstitutunun prorektoru Mark Applebaum, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, YAP Təftiş Komissiyasının üzvü Sadiq Qurbanov, Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü, BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri Anar İsgəndərov, BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov, Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü, Gəncə Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru Pərvin Kərimzadə, Milli Məclisin deputatı, YAP Təftiş Komissiyasının üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru Elman Nəsirov, YAP Xətai rayon təşkilatının sədri, Bakı Slavyan Universitetinin professoru Vüqar Rəhimzadə, BDU-nun Qafqaz xalqları tarixi kafedrasının müdiri İradə Hüseynova, BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecin direktoru, BDU-nun Şifahi xalq ədəbiyyatı kafedrasının müdiri Səhər Orucova məruzələrlə çıxış ediblər.

Konfrans öz işini aprelin 27-də bölmə iclasları ilə davam etdirəcək və ümumilikdə 98 mövzu ətrafında çıxışların dinlənilməsi nəzərdə tutulmuşdur.

# Separatçılar üçün SONUN BAŞLANĞICI

*Azərbaycan torpaqlarında özləri üçün bir dövlət qurmaq arzusunda, niyyətində olan və buna görə də başlarında dəmir yumruğun zərbəsini hiss edən separatçılar bu zərbənin təsirindən ayılar-ayılmaz yenə də xam xəyallara düşsələr də, bu dəfə tamamilə məhv olacaqlarını artıq yaxşı başa düşüblər. Görünən odur ki, Xankəndidəki separatçı-terrorçu rejim artıq "hər şeyi itirmək" astanasında olduğunun fərqindədir və elə buna görə də rejimin sonunun çatdığını da dərk edirlər. Bu səbəbdəndir ki, rəsmi Bakının "Azərbaycan bayrağı altında yaşamaq" təklifini qəbul etmək əvəzinə ərazilərimizdə məskunlaşan erməni əsilliləri güdaza verməyə də hazırdırlar və hətta buna can atırlar.*

"Biz vətəndaşsız qalsaq da, heç vaxt Azərbaycanın bir hissəsi olmayacağıq", deyən separatçılar bu ifadə ilə faktiki olaraq ərazimizdə məskunlaşan erməniləri qırğına belə verəcəklərinə hazır olduqlarını açıq-aşkar bildirirlər. Ölkə rəhbərimizin, "separatçıların iki seçimi var: ya Azərbaycan bayrağı altında yaşamaq, ya da rədd olub çıxıb getmək", çağırışı görünür separatçı-terrorçu rejim daxilində rezonans doğurub, çünki onlar başlarına gələnlər səbəbindən yaxşı bilirlər ki, belə çağırışın ardınca nə ilə qarşılaşa bilərlər və bu da onların sonunun çatması deməkdir.

Separatçılar reinteqrasiyanı qəbul etməməklə, prosesləri hərbi müstəviyə sürüklədiklərini çox yaxşı başa düşürlər. Amma görünür elə buna da çalışırlar. Məqsəd də indidən bəllidir. Onlar istəyirlər ki, yeni bir eskalasiya ortaya çıxsın və bununla da bütün dünyaya göstərsinlər ki, birgəyaşayış guya qətiyyən mümkün deyil. Doğrudur, bunun onsuz da separatçılara heç bir faydası olmayacaq və birgəyaşayışın guya mümkünsüzlüyünü göstərməklə belə heç nəyə nail olan deyillər. Bundan sonra separatçılar işğaldan azad olunan torpaqlarda nə ağalıq edə biləcəklər, nə bizim torpaqlarımızda dövlət qurmaq niyyətini gerçəkləşdirə biləcəklər, nə də bütün dünya belə Azərbaycan ərazilərində onlara ağalıq etmək, istədiklərinə nail olmaq şansı yarada bilməyəcək. Amma bununla belə separatçılar sonlarının çatdığını dərk etdikləri üçün olmayan ağıllarına gələn bütün variantlardan istifadə etmək niyyətindədirlər. Elə bu niyyətiləri də onlar özləri üçün bu dəfə son deməkdir.

Terrorçu rejimin qondarma "rəhbərinin" elə qondarma da "müşaviri" hesab olunan David Babayanın dedikləri arasında "vətəndaşsız qalsaq da" sözü ondan xəbər verir ki, separatçı-terrorçi rejim Azərbaycanın Qarabağ ərazisində yaşayan sonuncu erməni də güdaza verməyə hazırdır. Belə məlum olur ki, reinteqrasiya prosesinin qarşısını, hərhansı vasitə ilə, hətta öz erməni soydaşlarını belə aradan götürmək bahasına almaq niyyətində olduqlarını separatçılar heç gizlətmirlər də. Açıq şəkildə etiraf edirlər ki, buna mane olmaq üçün bütün əməllərə əl atacaqlar və hətta erməni əhalisinə baha başa gəlsə də belə, bundan çəkinməyəcəklər. Burada bir məsələ də diqqəti çəkir ki, separatçılar belə ifadələr səsləndirməklə, həm də ərazilərimizdə məskunlaşan erməni əhalisinə də mesajlar ötürürlər və onlara çatdırmaq istəyirlər ki, əgər reinteqrasiyaya getmiş olsalar, yəni Azərbaycan bayrağı altında yaşamağı qəbul etsələr mütləq onlar tərəfindən cəzalandırılacaqlar. Daha dəqiq desək, separatçı-terrorçi rejim



erməni əhaliyə indidən hədə-qorxu gəlir, onları təhdid edir və bununla da reinteqrasiya prosesinə ciddi cəhdlə mane olur.

Əslində, separatçıların belə "tarana" getməsi səbəbsiz deyil, bu, onların öz düşüncələrinə görə çıxılmaz vəziyyətdə olduqları anlamına gəlir. Yəni, bu, istədiklərinə nail ola bilməmələrini başa düşmələri deməkdir. Onlar indi artıq çıxılmaz vəziyyətdə olduqlarını nəinki başa düşürlər, belə təhlükəli iddialarla bunu etiraf da etmiş olurlar. Babayanın fikirləri onların müharibə, döyüş niyyətində olmalarından xəbər verir. Reinteqrasiyadansa müharibəyə üstünlük verən separatçılar bununla sonlarının çatdığını həm də göstərmiş olurlar. Bununla istər Ermənistan rəhbərliyinə, istərsə də dünyada yayılan erməni lobbisinə bir mesaj verirlər ki, sonları çatıb. Yəni, son anda köməyə ehtiyac duyduqlarını çatdırmaq fikrindədirlər. Çünki artıq nə Ermənistan tərəfindən, nə də xarici ölkələrdəki lobbilərindən bir dəstək ala bilmirlər. Meydanda tamamilə tək və çarəsiz qaldıqları ən çox özlərinə əyandır və bu məqamda çarəsizliklərini açıq-aşkar şəkildə etiraf edirlər. Həmçinin bildirmək istəyirlər ki, köməklik olmasa həmin ərazilərdə ermənilərin birdəfəlik mövcudluğuna son qoyulur. Daha dəqiq desək, separatçılar özləri sonun başlanğıcında olduqlarını hər kəsə bəyan edirlər.

Bu anda separatçıların beynəlxalq ictimaiyyətə də mesaj vermək istəkləri təkzib edilə bilməz. Bir zamanlar beynəlxalq ictimaiyyəti aldada bilən separatçılar ola bilsin ki, yenə də nəyə isə ümid edirlər, amma artıq bunun mümkün olması ağıla gələn deyil. Əvvəla ona görə ki, 30 il işğalda saxladıqları ərazilərin qanuni sahibinin onlar deyil, Azərbaycan xalqı olduğu hər kəsə bəllidir, baxmayaraq ki, simasızlıq və ikiüzlülüklə bəzi ermənipərəstlər bunu etiraf etməkdən boyun qaçırırlar. Amma bunun indi heç bir mənası yoxdur və Makron kimi bir Avropa ölkəsinin prezidenti bu ikiüzlülüklə, ermənipərəstliklə nəyə isə nail ola bilməyibsə, deməli, qalanlarının da ümudləri puç və mənasızdır. "Artıq gözləntilərimiz, ümidlərimiz puç olub", deyə separatçıların etirafları da bunu təsdiq edir. Təsdiq edir ki, onlar gözlədiklərini ala bilməyəcəklər və bunu özləri də dərk edirlər. "Heç bir beynəlxalq təşkilat, heç bir dövlət təsirli addım atmır", demələri isə onu göstərir ki, separatçılar artıq bu acınacaqlı vəziyyətlərini görürlər, uduzduqlarının, sonlarının çatdığının fərqindədirlər.

"Beynəlxalq təşkilarlar, dövlətlər Azərbaycanla əlaqələrini, münasibərlərini daha da dərinləşdirirlər", deyə şikayətlənən separatçı rejim ölkəmizin istənilən müstəvidə, müharibə bitdikdən sonra belə danışıqlar masasında, münasibətlər sistemində qələbəsini görür və etiraf edir. Bəli, Azərbaycan artıq öz ərazi bütövlüyünü bərpa edib və onu qorumaq əzmində olduğunu da təsdiq edib. Bunu bütün dünya belə də başa düşür və bu halda separatçıların çığır-bağır salması nəyi isə dəyişən deyil. "Boğulanın saman çöpünə belə əl uzatması" misalında erməni separatçıları "son nəğmələrini" oxuyurlar. Amma bu nəğmə daha çox ah-naləyə bənzəyir, özü də sonlarını xəbər verən bir naləyə. "Həlledici olan yol ayrıcındayıq, hər şeyi itirəcəyik", demələri isə onu göstərir ki, artıq sonlarının çatdığını özləri hamıdan yaxşı bilirlər və "itirəcəyik" ifadəsi də bunu təsdiq edir.

İstər Ermənistanla, istərsə də bütün xarici aləmlə əlaqələri kəsilən, xəlvəti yollarla xırda-para dəstəkdən başqa güman yeri qalmayan separatçılar bilirlər ki, bu artıq onlar üçün son deməkdir. Bilirlər ki, rəsmi Bakının, şəxsən Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin, "ya Azərbaycan bayrağı altında yaşamaq, ya da rədd olub çıxıb getmələri", çağırışı onlar üçün son şansdır. Halbuki, onlar bu şansı dəyərləndirməkdənsə, məhv olmalarını daha da sürətləndirəcək yolu, təxribatlarla eskalasiya yaratmaq yolunu seçirlər. Bu isə onlar üçün sonun başlanğıcı deməkdir.

***İnam Hacıyev***



MƏTLƏB
*Metlebsalahov@mail.ru*

# İrəvanda qanlı toqquşmalar qaçılmazdır

**Ermənistanda Nikol Paşinyan iqtidarına qarşı şiddətli etirazlar və nifrət dalğası hər keçən gün genişlənir. Xüsusilə, Azərbaycanın Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət postunu yaratmasından sonra "inqilabçı" baş nazir sərt hədəf taxtasına çevrilib. N.Paşinyan əleyhdarları o qədər fəallaşıblar ki, hətta baş naziri hökumət evinə buraxmamaq barədə çağırışlar belə ediblər. Bu çağırış olduqca gərgin situasiyanın və İrəvanda qanlı xaosla müşayiət olunacaq kütləvi etirazların baş qaldıracağına işarədir. Çünki radikal qüvvələr sanki əllərinə fürsət keçibmiş kimi, hazırkı erməni hakimiyyətinə qarşı olduqca sərt ittihamlar irəli sürür, küçə hərəkatından hakimiyyətə daraşan N.Paşinyanı devirmək üçün münasib vaxtın yetişdiyini düşünürlər. Əslində, radikallar rəsmi Bakının öz suveren əraziləri daxilində atdığı son addımı sanki əldə "bayraq" edib N.Paşinyanın satqın obrazı barədə ictimai rəy yaradırlar. Açıq şəkildə erməni siyasətində qanlı haqq-hesab üçün zəmin yaradılır.**

Bu dəfə daha tutarlı və kütləni ayağa qaldıracaq "propaqanda" ilə meydana atılırlar. Nədir bu tutarlı təbliğat? Son vaxtlar Azərbaycan qarşısında açıq-aşkar əzik duruma düşdüyü deyilən N.Paşinyanın "əsl türkə çevrildiyi" barədə ucadan hay-küy qaldırmaq. Amma budəfəki siyasi səhnədə erməni xalqının quldurbaşı kimi yanaşdığı Serj Sarkisyan və Robert Koçaryan olmayacaq yəqin ki. Yeni siyasi situasiyada keçmişdə siyasi baxımdan tam "istifadə edilmiş", vaxtı bitən keçmiş quldurbaşıları ön sıralara çəkmək radikallara artıq sərf etmir. Onlar yeni siyasi isimlərlə meydanlara çıxacaqlar ki, bu da tam başadüşülən prosesdir. Artıq neçə gündür İrəvandakı meydanlarda erməni heyvərəliyinə xas şəkildə Azərbaycan və Türkiyə bayraqlarının yandırılması, bir qrup İrəvan sakininin Qarabağ istiqamətinə hərəkət etməyə cəhd etməsi, kütləvi itaətsizliyə parlament deputatları səviyyəsində edilən çağırışlar növbəti həftələrin erməni hökuməti üçün ağır keçəcəyindən xəbər verir.

Həm də unutmayaq ki, daima terrordan bəslənən erməni cəmiyyəti və siyasi dairələri üçün 1999-cu ildəki parlament qətliamına oxşar yeni qanlı tamaşa hazırlamaq stəkanla su içmək qədər asan bir işdir. Hətta erməni cəmiyyətində və siyasətində stəkanda su əvəzinə rəqiblərinin isti qanını içmək həvəsində olan yırtıcı radikal manyaklar nə qədər desən var. Məgər 1999-cu ildə parlamentdə qanlı terror törədənlər S.Sarkisyan və R.Koçaryan deyildilərmi? Beyni zəhərlənmiş kütlənin son addımları açıq şəkildə zombiləşdirilmiş düşüncəsiz faşist erməni cəmiyyəti ilə sülh müqaviləsinin mümkünsüzlüyünü də ortaya çıxarır. Azərbaycanlı və türk üçün nifrət dolu fikirlər səsləndirən, iki ölkənin bayraqlarını beynəlxalq tədbirlərdə belə yandırmaqdan çəkinməyən barbar erməni cəmiyyəti ilə sülh şəraitində yaşamaq çox qəliz görünür. Mənə qalsa, hətta mümkünsüzdür deyərdim...

Amma ermənilərin nifrəti təkcə Azərbaycan və Türkiyəyə qarşı məhdudlaşmır. Sırada onları uzun əsrlər bundan əvvəl Qafqaza gətirib torpaq verən, onlar üçün olmayan erməni dövləti "yaradan", onları həyətindəki köpək kimi bəsləyən Rusiya da hədəfdədir. Bu anti-Rusiya nifrəti son proseslərdən sonra elə açıq və nifrət tonuna keçib ki, İrəvanda Azərbaycan və Türkiyə bayraqları ilə yanaşı, Rusiya bayrağı da yandırılıb külə çevrildi. İlk baxışdan, elə də ciddi bir hadisə kimi görünməyə bilər. Amma əllərində Fransa və Avropa İttifaqı bayraqlarını tutanların sıraları genişləndikcə, İrəvanda rus əleyhdarlarının səsləri daha bərkdən çıxmağa başlayır. Erməni radikallar qəzəblə etiraz edirlər ki, nədən Rusiya sülhməramlıları Azərbaycanın öz qanuni ərazilərində nəzarət buraxılış məntəqi yaratmasına imkan yaradır?

Gülünc deyilmi? Mən öz ərazimdə qanunsuz silah daşınmasına qarşı tədbir görürəm, sülhməramlılardanmı icazə almalıyam? Çoxdandır Rusiyaya qarşı nifrət hisslərini meydanlarda səsləndirmək üçün alışıb yanan erməni radikallarına sanki fürsət yaranıb. Sözsüz ki, sarıqulaq İvan bütün bu baş verənlərə, xüsusilə, İrəvanda Fransa və Avropa İttifaqının bayrağları dalğalanan mitinqdə Rusiya bayrağının yandırılmasına yaşıl gözlərini yuması deyil. Kremlin öz əbədi nökərinə "ərdabında" qulaqburması verməsi qaçılmazdır. İrəvandakı son təxribatların da Fransa və digər qərb ölkələrindən "ilhamlandığı" göz önündədir. Fransa və AB bayraqlarını başları üzərində dalğalandıran erməni radikallar əvəzində Azərbaycan, Türkiyə və Rusiya bayraqlarını oda verirlər. İrəvandakı son təxribatlardan sonra gəlinən əsas nəticə budur ki, erməni cəmiyyətinin nə qədər faşist düşüncəli zombiyə çevrildiyi barədə bundan gözəl nə nümunə gətirəsən. Beləlari ilə qonşu olmaq talesizliyin ən betəridir....

# Siyasi, etnik və dini zəminində yaranan terrorizm

***İnsan tələfatları ilə nəticələnən və güclü psixoloji gərginliklər yaşadan terrorizm siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Terrorizm insanlığa qarşı yönəldilmiş bəladır və minlərlə insan terrorçuların törətdikləri əməllərin acı nəticələrini yaşamışdırlar. Əlbəttə ki, terrorçunun milliyyəti və sərhədi yoxdur. Azərbaycan da terrordan əziyyət çəkən dövlətlər sırasındadır. Zaman-zaman Azərbaycana qarşı ermənilər tərəfindən terror aktları törədilmiş və bunun acı nəticələrini yaşamışıq.***






Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terrorçuluğun törətdiyi əməllərin qanlı izləri bizlərə yaxşı tanışdır. Ermənistanın insan tələfatına nail olmaq məqsədi həyata keçirdiyi terror aktları nəticəsində minlərlə günahsız insan həlak olmuşdur. Tarix boyu özgə torpaqlarına göz dikən və terrorçu əməlləri ilə qınağa çevrilən ermənilər günahsız insanların ölümünə səbəb olublar. Dili hibrit, yeni calaq dili, ərazisi, mədəniyyəti, mətbəxi, tarixi olmayan ermənilər tarixi, irsi, mədəniyyəti ilə dünyanın marağında olan bir dövlətlə Azərbaycanla qonşudurlar. Müasir dünyamız 200 il ilə müqayisədə ciddi şəkildə dəyişmiş olsa da təssüflər olsun ki, erməni siması dəyişməyib.

Ermənilərin hər bir hərəkəti, ümumilikdə siyasəti məkrlidir. Mülki əhalinin, xüsusilə qadınların və uşaqların, ahılların Ermənistan hərbi qüvvələrinin hədəfinə çevrilməsi onların tarixi kimliyinə söykənir. Vətən müharibəsinə qədər, eləcə də, həmin zamanda erməni terroçuların törətdikləri əməllər dünyanın gözü qarşısında baş verib. Yaxın tarixi keçmişimizə nəzər salaq. Hələ sovet dövründə yaşadığımız illərdə 8 sentyabr 1984-ci ildə Bakıda 106 saylı sərnişin avtobusunun erməni terrorçusu Henrix Vartanov tərəfindən partladılması zamanı iki uşaq anası olan Surxalizadə Fatma həlak olmuş, üç nəfər yaralanmışdır. Hadisə o vaxt SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən terror aktı kimi deyil, onunla Vartanovla müdiriyyət arasında olan narazılıq kimi qiymətləndirildi. Hadisənin təşkilatçısı olan Henrix Vartanov psixi xəstə kimi qəbul edilərək həbsdən azad edilərək məcburi psixi müalicəyə göndərildi. Əlbəttə ki, bu ermənipərəst qüvvələrin himayəçilərinin əməlləri idi. 16 sentyabr 1989-cu ildə erməni terrorçuları Tbilisi-Bakı reysi ilə işləyən sərnişin avtobusunu partlatmışlar. 5 adam həlak olmuş və 25 nəfər yaralanmışdır. 13 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də ”Şuşa-Bakı” marşrutu ilə hərəkət edən avtobus partladılmış, nəticədə 13 nəfər ağır yaralanmışdır. 24 mart 1990-cı ildə ”Noraşen-Bakı” yolunun 364-ci km-də dəmir yolu partladılmış, nəticədə teplovoz və 3 vaqon partladılmış, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür. Bu siyahını artırmaq üçün əsas dəlillər çoxdur.

## ERMƏNİ TERRORLARININ QANLI İZLƏRİ

Hər bir terror aktında insan ölümü diqqəti çəkir. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndində ermənilər Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başlanılıb. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olunub. Bundan bir həftə sonra, 20 fevralda Dağlıq Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırıblar. Bu, Qarabağın azərbaycanlı icmasının haqlı narazılığına səbəb olub. Bundan sonra sovet rəhbərliyi vəziyyəti stabilləşdirmək üçün Xankəndinə Daxili Qoşunların batalyonunu göndərib. Həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlanıb. Xankəndi erməniləri Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd ediblər. 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında praktika keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanıb. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunun qisasını almaq üçün Xankəndinə yürüş edib və onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsilib. Baş verən qarşıdurmada iki azərbaycanlı qətlə yetirilib və çoxlu sayda insan isə yaralanıb. Bu gənclər sonradan illərlə davam edəcək Qarabağ münaqişəsinin ilk qurbanları olublar. Bu, bir daha ermənilərin terrorçu olduğunu sübut edən dəlillərdir. Belə ki, 1988-ci ilin yayında Xankəndi Uşaq Xəstəxanasında həkim-rentgenoloq işləyən əslən ağdamlı şəxs ermənilər tərəfindən xəstəxananın həyətində döyülərək, qətlə yetirilib.

28 iyun 1989-cu il tarixində ermənilər tərəfindən Badara qəsəbəsindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanıb. 1990-cı il may ayında Bakı-Xankəndi qatarı və Xankəndi-Ağdam avtobusu partladılıb. 1990-cı ilin iyununda xankəndili Əşrəf və Ələmşah adlı iki qardaş 336-cı moto-atıcı alayın qarşısında diri-diri yandırılıb. 5 sentyabr 1991-ci ildə Xankəndidəki radio-televiziya stansiyası partladılıb. Bu günə kimi bu hadisədə əli olanların adları məlum deyil. 1991-ci il yanvarın 5-də Kərkicahan ərazisinə ermənilər tərəfindən hücumlar olunur. Beləcə, qəsəbə 3 nəfəri itirir. Lakin erməni tərəfindən də, çoxlu itkilər olur. 1991-ci il 9 yanvar tarixində Baqmanyan Akop Qavruşoviç və Antonyan Artuşa Qriqoroviç tərəfindən DQMV-nin Daxili İşlər İdarəsinin rəisi general mayor V.Kovalyovun həyatına sui-qəsd edilmişdir. Buna səbəb kimi onun azərbaycanlıları müdafiə etməsi və sui-qəsdin yuxarı dairələrdən sifariş olunması göstərilmişdir. 1989-cu ilin oktyabr ayında evinə qayıdan iki nəfər Kərkicahan sakini güllələnmişdir. 1991-ci il fevralın 4-də ermənilər azərbaycanlılar yaşayan bir neçə binanı partladır, güllələyiblər. 1991-ci ilin yayında Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN Daxili Qoşunlar mayoru L.Xomiç qətlə yetirilmişdir. 24 fevral 1991-ci ildə Şuşadan Ağdam rayonuna gedən ”PAZ-3205” dövlət nömrə nişanlı avtobus şəhər ərazisində partladılmış, nəticədə 7 nəfər vəfat etmişdir. Həmçinin ermənilər bu zaman ərzində oğurluq və talançılıq işlərinə də, əl atıblar. İllər uzunu ölkəmizin demək olar ki, hər bir yerində ermənilər tərəfindən törədilən bu və ya digər faciələri, qətliamlar yaşamışıq. Vurğulamaq yerinə düşər ki, sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1923-cü il iyulun 7-də ”Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında” dekret verib və həmin dekretlə Xankəndi vilayətin mərkəzi elan olunub. 1923-cü ilin sentyabrında şəhər Stepan Şaumyanın adı ilə ”Stepanakert” adlandırılıb. Bu, erməni özbaşınalığı, erməni saxtakarlığıdır. Tarixi ədalət hər zaman bərpa olunur. 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə şəhərin əvvəlki, ”Xankəndi” adı bərpa edilib

## YAXIN KEÇMİŞİMİZİN SƏHİFƏLƏRİ

1992-ci il yanvarın 28-də daha bir terroru yaşamış olduq. Ağdamdan Şuşaya uçan ”Mİ-8” mülki helikopterinin erməni terrorçuları tərəfindən Xankəndi istiqamətindən qumbaraatanla vurulması terrorun acı nəticəsidir. Terror hadisəsi Şuşanın Xəlfəli kəndi yaxınlığında baş vermiş, hadisə nəticəsində əksəriyyəti qadın və uşaqlardan ibarət 41 sərnişin və 3 ekipaj üzvü, ümumilikdə 44 nəfər həlak olmuşdur. 44 nəfərin həlak olunması erməni faşist ideologiyasını bir daha üzə çıxarır. Xatırladaq ki, hadisədən iki ay əvvəl - 20 noyabr 1991-ci ildə ermənilərin Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında ”Mİ-8” helikopterini atəşə tutması nəticəsində Azərbaycanın bir çox dövlət xadimləri və jurnalistlər həlak olmuşdular. Həlak olanların arasında dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev və başqaları var idi. Ümumilikdə qəza nəticəsində 22 nəfər həlak olmuşdu.

Göründüyü kimi, real həyatda terror aktlarından daha çox günahsız kütlə, dövlət adamları ziyan çəkir. Müasir dünyanın toqquşduğu əsas və təhlükəli problemlərdən olan terrorizm daha çox siyasi, etnik, dini və s. zəminində yaranır. Əlbəttə ki, bu siyasi, iqtisadi və mənəvi ziyanla nəticələnir və hər bir dövlət, hər bir insan bunun qurbanına çevrilə bilər. Azərbaycanın tarixində belə hadisələrin sayı kifayət qədərdir.

### CENEVRƏ KONVENSİYASINA, BMT-NİN UŞAQ HÜQUQLARI HAQQINDA KONVENSİYASINA ZİDD ƏMƏLLƏR

Ermənistanın Azərbaycana hərbi təcavüz nəticəsində, insan hüquqları kobudcasına pozulub, etnik təmizləmə siyasəti və terror aktları günahsız azərbaycanlının həyatına son qoyulub. 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirmələri hələ də davam edirdi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır.

Terrorları törədən ermənilərin son illərdə və 44 günlük Vətən müharibəsi dövründə törətdikləri vəhşi əməlləri faşist ideologiyasının sahibi olmalarının təsdiqidir. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edib.

2011-ci il martın 8-də düşmən snayperi tərəfindən səkkiz yaşlı Fariz Arzu oğlu Bədəlov qətlə yetirildi. 2016-cı il Aprel döyüşlərində düşmənin Tərtərin Həsənqaya kəndini atəşə tutması nəticəsində 2000-ci il təvəllüdlü Kəlbəcər sakini Həsənli Turanə Kamandar qızı dünyasını dəyişdi. 2017-ci ilin iyul ayının 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması nəticəsində, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular. Təbii ki, mülki şəxslərin hədəfə alınması qəbuledilməzdir.

Bu və ya digər faktlar Ermənistanın Azərbaycanın mülki əhalisinə, xüsusilə uşaqlara qarşı vandalizminin sonu deyildi. 44 günlük Vətən müharibəsində xalqımız erməni terrorlarının daha acı nəticələrini yaşamış oldular. İşğalçı Ermənistan silahlı qüvvələri oktyabrın 11-də cəbhə bölgəsindən və münaqişə zonasından kənar yerləşən Gəncənin mərkəzi hissəsində yerləşən yaşayış binalarını raket atəşinə tutması nəticəsində 3-ü qadın olmaqla 9 nəfər həlak oldu, 16 qadın, 6 azyaşlı olmaqla 35 nəfər yaralandı. Vurğulamaq yerinə düşər ki, müharibə dövründə Goranboy rayonunun Qızılhacılı kənd sakini 2011-ci il təvəllüdlü Həsənov Elcan Elgün oğlu və Ağcabədi şəhərindən olan 2015-ci il təvəllüdlü İbrahimova Ayan Rövşən qızı yaralandı. Erməni terroru nəticəsində Ağcabədi rayonunun Taynaq kənd sakini, 2006-cı il təvəllüdlü İsgəndərov Fərid Dilafət oğlu, Naftalan rayonunun Qaşaltı kənd sakinləri 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və 2006-cı il təvəllüdlü Fidan Qurbanova həlak oldular.

Ermənistan silahlı qüvvələrinin raket və artilleriya atəşinə məruz qaldığı yaşayış məntəqələrindən biri də Bərdə şəhəridir. Bərdə şəhəri 5, 8, 27, 28 oktyabr və 7 noyabr tarixlərində raket və ağır artilleriya hücumlarına məruz qalıb. 2020-ci il oktyabrın 5-də Bərdə şəhərinin mərkəzi küçələrinə və mərkəzi xəstəxananın yaxınlığına düşmüş raket mərmisinin qəlpələrindən 2 nəfər həlak olub, 6 nəfər yaralanıb, mülki infrastruktura külli miqdarda ziyan dəyib. Ümumilikdə isə Bərdə şəhərində törədilən terrorlar nəticəsində 28 nəfər həlak olub, 108 nəfər yaralanıb.

44 günlük Vətən müharibəsi dövründə erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanda mülki əhalinin sıx yaşadığı məntəqələrə zərbələr endirib. Artilleriya atəşi nəticəsində dinc sakinlərin evləri dağılıb, infrastruktura ciddi ziyan dəyib. Bütün bunlara baxmayaraq Azərbaycan xaqqı 44 günlük müharibədə Zəfər qazandı. Errmənilərin dağıtdığı viran qoyduğu ərazilərimizdə bu gün böyük abadlıq-quruculuq işləri aparılır. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Mənfur qonşularımız bizə qarşı məkrli, çirkin niyyətlərini həyata keçirmişdilər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ağsuda Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə bağlı tədbir keçirilib







***Dünən Ağsu rayonunda Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 iliyi ilə bağlı tədbir keçirilib. SİA xəbər verir ki, tədbirdə Ağsu rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov, milli məclisin deputatları İqbal Məmmədov, Tahir Kərimli, Sabir Hacıyev, Novruz Aslan, "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev iştirak edib. Əvvəlcə Ağsu rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırovun, rayonun hüquq-mühafizə təşkilatlarının rəhbərləri və Ağsu rayon ictimaiyyəti ilə birgə Ulu Öndər Heydər Əliyevin Abidəsi ziyarət edilib. Sonra Ağsu rayon mədəniyyət evində Heydər Əliyev ili çərçivəsində konfrans baş tutub.***

Tədbiri giriş sözü ilə açan Milli Məclisin deputatı İqbal Məmmədov bildirib ki, Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrü dövlət müstəqilliyimizin möhkəmlənməsi dövrüdür: "Onun gücü xalqa arxalanmasında və onlarla birgə olmasında idi. Fəaliyyəti dövründə həmişə xalqına xidməti qarşısına məqsəd qoyan Heydər Əliyev vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması üçün var qüvvəsi ilə çalışırdı. Heydər Əliyevin Azərbaycan dövlətini inkişaf etdirərək, onun dünyanın ən qüdrətli və zəngin dövlətləri sırasına çıxarılması istiqamətində apardığı məqsədyönlü işlər əvəzolunmazdır".

Daha sonra Ağsu rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov Ulu Öndərin Azərbaycan xalqının və dövlətinin həyatındakı tarixi xilaskarlıq missiyasından söz açıb. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həyata keçirdiyi strategiya bütün sahələrdə əldə edilən uğurların əsasını təşkil edir. Ulu Öndər xalqımızın və dövlətimizin qarşısında duran çətinlikləri aradan qaldırmaqla Azərbaycan dövlətini qısa zamanda hüquqi, dünyəvi, demokratik dövlətə çevirib.

"Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev deyib ki, bu gün müstəqil Azərbaycan dövləti istər regionda, istərsə də beynəlxalq aləmdə təşəbbüskar, ideyaverici və siyasi-iqtisadi mərkəz rolunda birmənalı söz sahibinə çevrilibsə, bu təməlin gerçəkləşdirilməsində, atılan addımların hər birində Ümummilli Lider Heydər Əliyev uzaqgörənliyi və müdrikliyi dayanmaqdadır: "Siyasətdə belə bir deyim var – siyasətçi seçki üçün, dövlət xadimi isə xalq üçün çalışır, fəaliyyət göstərir, əmək sərf edir. Ulu Öndər də dövründə yalnız siyasətçi kimi deyil, həm də dövlət xadimi olaraq xalqının, dövlətinin gələcək müqəddəratı barədə düşünüb. Bu gün biz onun zəhmətinin bəhrəsini görməkdəyik".

Milli Məclisin deputatları Tahir Kərimli, Sabir Hacıyev, Novruz Aslan da çıxışlarında bildiriblər ki, Heydər Əliyevin ideyaları qalib gəlir, yaşayır. Bu isə insanlara xoşbəxtlik gətirir. Dövlətimizi möhkəmləndirir. Hər birimiz çalışmalıyıq ki, Heydər Əliyevin siyasi kursu uzun illər davam etsin.



Azərbaycanın iqtisadi gücü möhkəmlənsin, əhalinin sosial rifahı artsın. Azərbaycan dünyada güclü, qüdrətli dövlət olsun. Heydər Əliyev dünya çapında tanınmış dahi bir lider olduğu üçün ümumiyyətlə, dünyanın hər yerində abidəsi ucaldıla bilər. Tədbirə müzakirələrlə yekun vurulub

## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il aprelin 26-da YAP Xocalı rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Goranboy rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliy
məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

# Bu torpaqların sahibləri bizik!

*Hayastan təxribatlara son qoyaraq sülh müqaviləsinin imzalanması üçün real addımlar atmalıdır*



**_Ermənistan xüsusi təyinatlı qüvvələrinin aprelin 12-də iki ölkə arasındakı şərti sərhəddə ordumuzun mövqelərinə qarşı təxribatından cəmi iki gün sonra paytaxt İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimi zamanı Azərbaycan bayrağının yandırılması işğalçı ölkə rəhbərliyinin məkrli, riyakar siyasətini davam etdirdiyini göstərdi. Məlumdur ki, nə əsgər və zabitlər özbaşına postumuza hücuma keçməmişdilər, nə də tədbirin təşkilatçılarından olan dizayner Aram Nikolyan öz təşəbbüsü ilə baş nazir Nikol Paşinyanın iştirak etdiyi və bu səbəbdən ciddi təhlükəsizlik tədbirlərinin görüldüyü beynəlxalq tədbirdə ermənisayaq vandallizm törətməmişdi._**



Hər iki təxribatın qabaqcadan planlaşdırıldığını təsdiq edən ciddi arqumentlərin mövcudluğu, həmçinin hökumət başçısınının gözləri qarşısında rahat şəkildə bayrağımızı yandıran Nikolyan haqqında sonradan heç bir inzibati cəza tədbirinin görülməməsi, “istintaq”ın ilkin mərhələsində işdə “cinayət tərkibinin olmadığı”nın elan edilməsi baş verənlərin ssenarisinin eyni qələmlə yazıldığını təsdiq edir. Bu iki hadisəyə əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən azaraq itkin düşən və aprelin 13-də Ermənistan ərazisində saxlanılan iki azərbaycanlı əsgərə işgəncə verilməsini, onların fiziki təzyiqlərə məruz qoyulmasını da əlavə etsək son təxribatlara erməni cəmiyyətinin münasibəti haqqında da təsəvvür yaratmaq mümkündür. Deməli, Hayastanın siyasi rəhbərliyi yenə də təxribatlar vasitəsilə Cənubi Qafqazda davamlı sülhün əldə olunması istiqamətində aparılan sülh danışıqlarını ləngitməyə və bununla vaxt qazanmağa çalışır, erməni cəmiyyətindəki azərbaycanofobiya meyilləri, Azərbaycana qarşı kin və nifrət hisləri isə nəinki azalmayıb, hətta artıb. Nikolyanın bayrağımızı yandırdığı üçün ictimai qınaqla üzləşməsi əvəzinə az qala Hayastanın qəhrəmanına çevrilməsi də bu kin və nifrətin təzahürüdür.

Baş nazir Nikol Paşinyanın aprelin 18-də Milli Məclisdə müxalifət fraksiyalarının qatıldığı “Ermənistan Respublikası hökumətinin 2021-2026-cı illər üçün beşillik planının icrasının gedişi və nəticələri haqqında” müzakirələr zamanı verdiyi açıqlamalar da göstərir ki, erməni cəmiyyətində revanşizm meyilləri sülh gündəmini arxa plana keçirib. Çıxışında Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tam formada tanıdığını və rəsmi İrəvanın guya Azərbaycanla sülh müqaviləsinin ən qısa müddətdə imzalanması üçün “səmimiyyətlə” çalışdığını deyən Paşinyan dolayısı ilə etiraf edib ki, erməni xalqı buna hazır deyil: “Siyasi və diplomatik sahədə kompromislər əldə olunarsa, bu, Ermənistan vətəndaşlarının da xeyrinə olar. Vətəndaşları inandırmaq Ermənistan hakimiyyətinin vəzifəsidir. İnsanlar başa düşdükdən sonra bu məsələyə razı olacaqlar.”

Ancaq elə həmin çıxışında Ermənistanın baş naziri Azərbaycanla sülh müqaviləsinin imzalanması üçün beynəlxalq təminatlara ehtiyac olduğunu söyləyib: “Sülh sazişinin həyata keçirilməsinə zəmanət verən beynəlxalq mexanizmlərin yaradılması son dərəcə vacibdir. Əks halda, imzalanan gündən bir gün sonra müharibə başlaya və ya yeni eskalasiya baş verə bilər.”

Bu, Paşinyanın yenə də dolayısı ilə sülh gündəmindən yayınmaq cəhdidir. Çünki hər iki dövlətin ərazi bütövlüyü çərçivəsində sülh müqaviləsinin imzalanmasına hazır olduğunu Azərbaycan dəfələrlə bəyan edib. Paşinyan isə bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünü tam olaraq tanıdığını deyir, digər tərəfdən isə “Qarabağdakı ermənilərin hüquqları və təhlükəsizliyi” məsələsini qaldırmaqla Azərbaycanın daxili işlərinə müdaxilə cəhdi sərgiləyir. Sual oluna bilər ki, əgər İrəvan Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə qəbul edirsə son ardıcıl təxribatlar nə məqsədlə törədilir? Niyə öz ordunuzun qalıqlarını Qarabağdan hələ də çıxarmamısınız? Qarabağdakı proseslərdən sizə nə?

İtaliyalı jurnalist və politoloq Domeniko Letisiyanın fikrincə, Ermənistan Azərbaycana qarşı təxribatları ilə vətəndaşlarının diqqətini ölkədəki iqtisadi problemlərdən yayındırmağa çalışır. “Report”un məlumatına görə, politoloq Ermənistan hakimiyyətinin əhalinin diqqətini daxili problemlərdən yayındırmaq üçün təhlükəli və müəyyən edilmiş siyasət yürütdüyünü bildirib: “Daxili siyasi idarəetmə və vətəndaşlarla münasibətlər baxımından xeyli problemləri olan Ermənistan daxili siyasət problemlərinin kənarda qalması üçün əhalinin nəzərini Azərbaycana yönəltməyə üstünlük verir. Beləliklə, Ermənistan vətəndaşların diqqətini ölkənin üzləşdiyi iqtisadi problemlərdən yayındırmaq üçün nifrət və təxribat dilindən istifadə edir.”

Təxribatları və ikili oyunbazlığı dövlət siyasətinə çevirmiş Ermənistandan fərqli olaraq Azərbaycan sülh çağırışlarına hər zaman sadiqdir. Bunu beynəlxalq hüququn prinsiplərinə hörmətlə yanaşması və müxtəlif formatlarda keçirilən çoxtərəfli sülh danışıqlarında konkret real nəticlərin əldə olunmasına töhfə verməyə çalışması ilə sübut edib. Bu gün də Azərbaycanın mövqeyi ondan ibarətdir ki, tezliklə sülh müqaviləsi imzalansın, Azərbaycanla Ermənistan arasındakı qarşıdurmaya son qoyulsun. Əgər Azərbaycanın bu humanist və haqlı tələbi Ermənistan tərəfindən lazımi səviyyədə dəyərləndirilməsə, o zaman düşmən yenə bizim gücümüzlə hesablaşmalı olacaq. Prezident İlham Əliyevin aprelin 18-də Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibəsində bəyan etdiyi kimi: “İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində Ermənistan, onun havadarları və eyni zamanda, ona dəstək verən ölkələr və qüvvələr bizim iradəmizi, qətiyyətimizi, gücümüzü əyani şəkildə görüblər. Mən indi sadalamaq istəmirəm, bu iki il yarım ərzində bir çox önəmli hadisələr baş vermişdir, həm Azərbaycan-Ermənistan dövlət sərhədi istiqamətində, eyni zamanda, Rusiyanın müvəqqəti qaydada yerləşdirilmiş sülhməramlı qüvvələrinin nəzarətində olan bölgədə. Biz dəfələrlə göstərmişik ki, bu torpaqların sahibləri bizik və heç kimə imkan vermərik ki, bizim ərazimizdə kimsə at oynatsın.”

***Mahir Rəsuloğlu***




## “Avropa ölkələri ilə strateji tərəfdaşlıq möhkəmlənir”



KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ

“Azərbaycanın Avropa İttifaqı ölkələri ilə əməkdaşlığı ildən-ilə genişlənir və bu ölkələrin üçdə biri artıq dövlətimizlə strateji tərəfdaşdır.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri qeyd edib ki, Sofiyada imzalanmış memorandum isə enerji təhlükəsizliyi baxımından bu əməkdaşlığa yeni bir töhfədir və Avropa İttifaqı üzvü olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında razılaşma və bəyannamələr imzalanmış, sənəd qəbul edilmişdir.

“Cənab Prezident İlham Əliyev bildirmişdir ki, “Bu gün imzalanan Anlaşma Memorandumu Avropanın enerji təhlükəsizliyini gücləndirəcək və Azərbaycanın bir çox Avropa ölkəsinə daha çox qaz ixrac etməsinə imkan verəcək”. Azərbaycan Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan və İtaliyaya, bu ildən isə Ruminiyaya qaz ixrac edir. Macarıstan və Slovakiyaya ilin sonunadək Azərbaycandan qaz ixrac edilməsi nəzərdə tutulmuşdur. Prezidentimizin qeyd etdiyi kimi, Azərbaycan 27 ildən çoxdur ki, Avropanın etibarlı xam neft tədarükçüsüdür, elektrik enerjisi də bizim ixracımızın bir hissəsidir.

Sofiyada imzalanmış memorandum, Avropa ölkələri ilə tərəfdaşlıq Azərbaycanın dünyada artan nüfuzunun və Azərbaycanın dövlət rəhbərinin sülhə, əminamanlığa, əməkdaşlığa, münasibətlərin yaxşılaşdırılmasına göstərdiyi səylərin nəticəsidir. Bu, dövlətimizin inkişafı üçün çox vacib və əhəmiyyətlidir”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Papirosum yana-yana...



***Çox sevdiyimiz bir tamaşada çox sevdiyimiz aktyorun ifasında səsləndirilən mahnının “papirosum yana-yana, od saldı şirin cana” sözləri hər dəfə bizi nə qədər güldürürsə, siqaret çəkənlərin içinə düşən od o qədər narahat edir. O od ki, bəzən dəb xətrinə, bəzən böyüdüyümüzü göstərmək, bəzən alışqanlıq, bəzən dostdan geri qalmamaq, bəzən özünü kişi hesab etmək, bəzən mühitin “ərməğanı”, bəzən bir dəfə dadına baxmaqla içimizə düşür və ömürlük yol yoldaşımız olub bizi elə yandırır ki, bir də baxırıq ki, bir ovuc küldən başqa heç nəyimiz qalmayıb.***

Siqaret çəkməyin zərərləri haqqında illərdir ki, bütün mətbuat orqanları, səhiyyə, həkimlər, ağsaqqallar bar-bar bağırsalar da, lakin nədənsə onların sözlərini dinləyən yoxdur. Görünür bu, elə bir alışqanlıqdır ki, ona nə ictimai qınaq təsir edir, nə maarifləndirmə kar salır, nə ağsaqqal sözü keçir, nə də həkim məsləhəti. Nəticə isə bu olur ki, dünyada hər il milyonlarla insan siqaret zəhərinin qurbanı olur.

Hesablamalara görə, tütünün törətdiyi xəstəliklər nəticəsində hazırda dünyada hər il 8 milyondan artıq insan ölür. Onların 1 milyonu ətrafa yayılan tütün tüstüsü ilə nəfəs alan passiv tütün çəkənlərdir.

XX əsrdə tütün epidemiyası bütün dünyada 100 milyon insanın həyatına son qoyduğu halda, XXI əsrdə tütündən 1 milyard insanın ölümü gözlənilir. Çünki tütün ağ ciyər və ürək-damar, həmçinin bronxial xərçəng, xroniki bronxit, emfizema və bir çox xəstəliklərin səbəbkarıdır.





### Bilə-bilə ölümə...

Maraqlıdır, dünyada elə bir adam tapılmaz ki, siqaretin zərərləri haqqında bilməmiş olsun. Bəzən düşünürəm, insan nə qədər şüursuz məxluqdur ki, bilə-bilə istifadə etdiyi ona zərərdir, lakin ondan əl çəkmir. Yəni bu, o qədərmi vacibdir?..

Həqiqətən düşünəndə adamın həm gülməyi gəlir, həm də ağlamağı. Nə üçün insan sağlamlığına bu qədər sıradan bir hal kimi baxır? Nə üçün bütün dünyada siqaretlə bu qədər mübarizə aparılsa da, bu, insanlara əsla təsir etmir. Sanki bu barədə eşitmirlər, bilmirlər.

Hər dəfə bu həyat üçün təhlükəni dodaqlarına yaxınlaşdıranda onun zərərləri haqqında eşitdiklərini xatırlamırlarmı? Xatırlamırlar ki, ildən-ilə siqaret çəkənlərin sayı artır. Bu say artdıqca ölümlərin də sayı artır...

Dövlət Statistika Komitəsinin “Ev Təsərrüfatı Tədqiqatının Əsas Yekunları”na dair 2020-ci ildə hazırlanan hesabatına görə, yaşı 15-dən yuxarı olanlar arasında siqaret çəkənlər 15,3 faiz təşkil edir. Bu rəqəm cəmi bir il sonra 15, 1 faiz olub.

Yaş qruplarına gəldikdə isə, siqaret çəkənlərin 0,2 faizi 15-19 yaşda (2021-ci ildə 0,1 faiz), 13,4 faizi 20-44 yaşda (2021-ci ildə 13,1 faiz), 21,7 faizi 45-64 yaşda (2021-ci ildə 21,9 faiz), 30,5 faizi (2021-ci ildə 14,4 faiz) 65 yaşdan yuxarı olan şəxslərdir. DSK-nın məlumatına görə, 15-19 yaşlılar 1,8 il (2021-ci ildə 1,0), 20-44 yaşlılar 10,1 il (2021-ci ildə 10,1), 45-64 yaşlılar 21,7 il (2021-ci ildə 21,5), 65 yaşlılar isə 30,5 il (2021-ci ildə 30,1) siqaret çəkir. 15-19 yaşlılar gündəlik olaraq orta sayla 9,5 (2021-ci il 10,0), 20-44 yaşlılar 13,9 (2021-ci il 13,8), 45-64 yaşlılar 15,5 (2021-ci il 15,5), 65 yaşdan yuxarı olan şəxslər isə 15,4 ( 2021-ci il 15,4) ədəd siqaret çəkirlər.

Göründüyü kimi, son iki ilin statistik hesabatında rəqəmlər bir qədər artıb-azalsa da, lakin elə bir fərqli rəqəm müşahidə olunmur. Buradan da o qənaətə gəlmək olur ki, bu qədər maarifləndirmə, bu qədər mübarizə qarşısında hələ də insan qəflət yuxusundan oyanıb sağlamlığının qeydinə qalmaq fikrində deyil. Məlumata görə, Azərbaycanda hər il 15 min nəfər tütün və onun yaratdığı müxtəlif xəstəliklərdən dünyasını dəyişir.

### Gənclikdən yaşlılığa: tüstülü, yoxsa tüstüsüz həyat?..

Siqaret çəkmək alışqanlığı əsasən gənclikdən başlanır. Bu bəlaya gənclikdə düçar oldunsa, səninlə bir ömür yol gedəcək və yaşlı çağlarında elə bir problemlə üzüzə qoyacaq ki, nə ondan əl çəkə biləcəksən, nə də yaşamaqdan vaz keçə biləcəksən. Ölümlə olum arasındakı məsafədə isə siqaret çəkmək yaşamağa üstün gələcək. Beləliklə xəstə kimi yaşayıb ölümünü gözləyəcəksən, çünki gənclikdən başlanıb gələn alışqanlığından əl çəkə bilməyəcəksən. Buna iradən yetməyəcək.

Gənclik çağında övladlarımızı həm biz valideynlər, həm də cəmiyyət qorumalıdır. Çünki siqaretlə insan arasında qısa bir yol var. O yolda siqaret səni üstələdisə, səninlə bir ömür yoldaşdır. Yox, əgər sən ona üstün gəldinsə, deməli, bir ömür sağlam həyat səni gözləyir. Beləliklə evlərimizdə böyütdüyümüz xüsusilə oğlan övladlarına vaxt ayırıb onlarla söhbətlər aparmaq bizim ümdə vəzifəmizdir. Bu əsnada böyüdüyünü hiss etdirmək üçün siqaretə əl atan uşaqlarımızla o qədər səmimi söhbət qurmağı bacarmalıyıq ki, o, böyüməyin siqaretlə bağlı olması fikrinin absurd olduğunu dərk etsin. Və yaxud da yoldaşları, dostları tərəfindən “sən kişi deyilsən, niyə siqaret çəkmirsən?” təklifinin nə qədər rəzil bir təklif olduğunu onlara başa salmalıyıq.

Eləcə də məktəbdə yeniyetmə oğlanlarla məktəb psixoloqları iş aparmalıdırlar. Bu kimi təkliflərin mənasız olduğunu, yaxşı dost və yoldaşın belə təklif etməsinin mümkünsüzlüyünü onların beyninə yeritməliyik. Çünki onlar həyatın astanasındadırlar. Nəyi necə edəcəklərini anlamırlar. Bu yaş dövründə qorunan uşaq gələcəyə tütünsüz bir həyatla gedir. Tüstüsüz həyat isə sağlam ailə, sağlam övladlar, gözəl gələcək deməkdir.

Yox, əgər uşaqlarımızla vaxtında məşğul olmasaq, onlara vaxt ayırmasaq, qarşıda onları tüstülü bir həyat gözləyəcək. Bu isə gələcəyin qeyri-sağlam övladları, öz övladımızın isə hər an ölümü deməkdir. Ümumilikdə isə gələcək üçün xəstə ailənin təməlidir.

2020-ci illə 2021-ci ilin statistikasında ürəkaçan məqam 15-19 yaşda olan gənclərin göstəriciləridir. Bu yaşda olanların siqaret çəkmə faizinin 0,2-dən 0,1 faizə enməsi böyük uğur, cəmiyyətimizdə gənclərlə aparılan işin nəticələridir.

Statistik hesabatda 15 yaşdan yuxarı kişi əhalinin 32,2 faizinin idmanla məşğul olması, 32,6 faizinin isə siqaret çəkməsi yarıya yarı kimi anlamında olsa da, 15-19 yaşda gənclərin 57,4 faizinin idmanla məşğul olub, 0,1 faizinin siqaret çəkməsi gözəl göstəricidir. Bu, ölkəmizdə gənclər siyasətinin düzgün qurulmasının, gənclərlə aparılan işin keyfiyyət amilinin yüksək olmasının göstəricisidir. Elə bütün bunların nəticəsidir ki, gənclərimiz 2020-ci ildə 44 günlük Vətən müharibəsində qəhrəmanlıq nümayiş etdirdilər. Sağlam bədəndə sağlam ruhla düşməni torpaqlarımızdan qova bildilər Bu müharibədə Şuşanın alınmasında gənclərimizin göstərdiyi şücaət isə böyük bir tarixdir. Sağlam olmayan gənc həmin döyüşlərdə əlbəyaxa vuruşa, sinəsi ilə yüzlərlə metr yüksəkliyə qalxa bilməzdi.

Elə bu söhbətin fonunda biz gəncliyimizə ümumilikdə siqaret bəlasından xilas olmasından, sağlam bir həyat, ömürdən savayı nə arzulaya bilərik ki...





*Ardı Səh. 12*

# Papirosum yana-yana...








Əvvəli-Səh-11

### Qadın barmaqlarına siqaret yaraşırmı?..

Kişilərin siqaret çəkməsi nə qədər təhlükəlidirsə, qadınların ondan istifadəsi qat-qat təhlükəlidir. Çünki qadın gələcəyin anasıdır. O, dünyaya uşaq gətirəcək. Ana nəsil artırandır. Gələcək nəsillərin sağlamlığına birbaşa cavabdeh şəxsdir. Bəs belə isə, ana olacaq qadın əgər siqaret çəkirsə, onun sağlam övlad həyata gətirməsi mümkündürmü?

Mütəxəssis həkimlər vurğulayır ki, 10 il ərzində siqaret çəkən qadınların tibbi müayinələrinin nəticələrinə əsasən, onların siqaret çəkməyən qadınlara nisbətən 25 dəfə artıq ağciyər xərçəngi xəstəliyinə tutulması aşkarlanıb.

ABŞ-da 30-55 yaş arası 100 000 qadının iştirak etdiyi böyük tədqiqatın nəticələrinə əsasən, gün ərzində 1-14 arası nadirən siqaret çəkən qadınlarda ani ürək dayanması ilə əlaqədar erkən ölüm riski kifayət qədər yüksəkdir. Maraqlıdır ki, həm də qadınlar kişilərlə müqayisədə siqareti atmaq üçün daha çox çətinlik çəkirlər.

Araşdırma apararkən belə bir maraqlı faktla da rastlaşdım: Harvardda aparılan tədqiqat nəticəsində bəlli olub ki, hamiləlik dövründə siqaret çəkən qadınların dünyaya gətirdikləri övladları cinayətə qarşı daha çox meyilli olurlar. Tək bu fakt siqaretin tərkibini, onun nələrə qadir olduğunu göstərmirmi? Baxın ki, siqaretin qanda yaratdığı zəhərlənmələr dölə necə təsir edirsə, onun gələcək həyatında cinayətə meyillik yaranır. Həqiqətən çox maraqlı nüansdır. Siqaret çəkənlərin bəlkə də hansına sual versən ki, övladının gələcəkdə cinayətə meyilli olacağını bilirsənmi, adama gülərlər. Lakin elm bunu sübut edir və bu, qaçılmazdır.

Dövlət Statistika Komitəsinin 2021-ci il üçün hesabatında ölkəmizdə qadınların siqaret çəkməsi ilə bağlı məlumat göstərilməsə də, hamımıza məlumdur ki, siqaret çəkən qadınlarımız, qızlarımız vardır. Hər dəfə onların barmaqları arasında siqaret görərkən bu fikir beynimdə təkrarlanır: bu barmaqlara, o dodaqlara siqaret yaraşırmı?

Qadın gözəllik mücəssəməsidir. Bütün varlığı, vücudu ilə gözəllik saçır. Bəs barmaqlar arasında tutulan, dodaqlar arasına qoyulan siqaret, ağızdan çıxan tüstü, üst-başdan ətir əvəzinə gələn qoxu bu gözəlliyə xələl gətirmirmi?

Haradasa 10 il öncə ilk dəfə İstanbula getmişdim. Və saysız sayda siqaret çəkən qadınları da ilk dəfə bu şəhərdə görmüşdüm. O vaxtlar hələ bizdə siqaret çəkən qadınlar az-az idi. Buna görə də təəccübümü gizlədə bilmirdim. Sanki başqa bir dünyaya qonaq olmuşdum. O qədər gözəl, füsunkar qadın və qızların tüstü-dumana büründüyünü müşahidə etdim ki, heyrət məni bürümüşdü. Əslində o vaxta qədər düşünə bilməzdim ki, bu qədər qadın siqaret çəkə bilər. Bir kafenin qarşısında-açıq havada oturub çay içirdik. Ətrafdakı qadınların siqaretinin tüstüsü mənim oradan təcili qalxıb uzaqlaşmama səbəb oldu.

Çox təəssüf etdim ki, mənim cinsimdən olan insanların bu cür mənzərəsi ilə qarşılaşdım. Və o, bir ürəkağrıdıcı xatirə kimi hər dəfə barmaqları arasında siqaret tutan qadın görüncə xəyalımda canlanır və yenə də ürəyimdən bu arzular keçir: kaşki heç bir qadın siqareti özünə yaraşdırmaya. Gələcəyini, analığını, övladını, onun sağlamlığını düşünə...

### Aktiv və passiv siqaretçəkmə

Çox təəssüf ki, siqaret çəkməyənlər siqaret çəkənlərin qurbanı olurlar. Onların tüstüsündə boğulub zəhərlənirlər. Belə ki, Azərbaycanda siqaret çəkməyənlərin 29% evdə, 41% isə qapalı ictimai yerlərdə tütünün təsirinə məruz qalır:

Böyüklər arasında passiv tütünçəkmə göstəriciləri son illər azaldığına baxmayaraq, hələ də yüksək olaraq qalır. Araşdırmalara görə kişilərin 28% iş yerlərində, qadınların 23% evdə tütün tüstünün təsirinə məruz qalır.

Siqaretin qiyməti tez-tez bahalaşır. Elə ötən həftələrdə də qiymət artımını müşahidə etdik. Bu və ya digər səbəbdən bəzən siqareti tərgitmək istəyən insanlara da rast gəlirik. Onlar elektron siqaretə keçməklə siqareti tərgidəcəklərini zənn edirlər. Lakin mütəxəssis həkimlər deyir ki, elektron siqaretdən istifadə etmək ən azı adi siqaret qədər təhlükəlidir. Siqaretin insan orqanizmi üçün ən təhlükəli tərəfi onun tərkibindəki qətrandır. Həkimlər də ən əsas buna görə insanlara siqaretdən imtina etməni məsləhət görür. Nikotin aludəçiləri isə çıxış yolunu elektron siqaretdə görürlər. Amma yanılırlar, siqaretin tərkibində olanlar demək olar ki, elektron siqaretdə də mövcuddur və bu, insan sağlamlığı üçün birbaşa təhlükədir.

Bu məsələlərin ciddiliyi nəzərə alınaraq ölkəmizdə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun da qüvvəyə minib. Qanunu pozanların 30 manatdan 1000 manata qədər cərimə olunması müəyyənləşdirilib. Qanuna əsasən, tütün məmulatlarından (siqaret), sulu qəlyan və elektron siqaretdən istifadə müəyyən yerlərdə qadağan olunub.

Hələ də aramızda bu qanuna zidd gedən insanlar var ki, onlarla hər kəs qarşılaşıb. Beləläri haqqında tədbirlərin görülməsi sözsüzdür. Lakin onlar gözdən uzaq yerlərdə məqam düşən kimi ətrafa tüstülərini yaymaqla məşğuldurlar. Çox təəssüf, onlar arasında sürücülər də var ki, bəzən taksidə utanmazcasına səndən "siqaret çəkə bilərəmmi?",- deyə soruşurlar...

Nə qədər ki, hələ də qanundan xəbərsiz insanlar var, onlar cəmiyyət arasında özlərini lazımi səviyyədə apara bilməyəcək və bizlər də passiv siqaret çəkən olaraq qalacağıq.

Lakin hər kəs tək özünü deyil, ailəsini, iş, yol yoldaşını, qonşusunu, qohumunu, dostunu, xüsusilə də övladını düşünməlidir. O zaman papirosunu yandıranda onları da yandırdığını bəlkə dərk edə. Bəli, "papirosum yana-yana, od salır şirin cana"... necə də yerində söylənmiş sözlərdir...

***Mətanət Məmmədova***



**Təhmasib Novruzov**

# Qıdı kirvənin nəvələrindən etiraf

Yəqin yazının başlığını oxuyan kimi oxucular söhbətin kimdən getdiyini anladılar. Böyük mütəfəkkir Nəcəf bəy Vəzirovun məşhur "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasının personajı, əsərin baş qəhrəmanı Hacı Qənbərin kirvəsi, yəni erməni dostu olub Qıdı Kirvə. Əsərin tam mətnini bilməyənlər ən azı bir vaxtlar televiziya ekranlarından düşməyən səhnəciyi yaxşı xatırlayırlar. Bir az səbrsiz oxucum indi deyəcək ki, "heç hənanın yeridi"? İndiki vəziyyətdə bu dığadan danışmağa nə hacət? Darıxmayın, indi deyəcəm ki, bu iyrənc məxluqatın bir nümayəndəsindən niyə söhbət açdım! Eşitdiklərimə görə Hacı Qənbər də, Qıdı kirvə də real həyatdan götürülmüş obrazlardı. Qarabağın Ağbulaq kəndindən olub Qıdı. Bu yaxınlarda Ağdamın, xarabazara çevrilsə də gülüstanı xatırladan ərazilərini gəzirdim. Necə özümə qapanmışdımsa dayanmırdım, bir az da irəli getmək istəyirdim. Şelli dağlarını aşıb keçdim. Qara qayadan da keçib, bir də özümə gəlib gördüm ki, Ağbulaq kəndinin yanındayam. Girdim meşəliyə. Asta addımlarla irəliləyirdim ki, bir də gördüm oxumaq səsi gəldi. Dinşayıb gördüm ki, Qıdı kirvənin məşhur "Dınqoz...dınqoz" mahnısıdı. Oxuyan da, deməyin eşitmədik, elə həmin Qıdı kirvədi. "Ölmək ölməkdi, xırıldamaq nədi" deyib ağacların arası ilə xəlvətcə yaxınlaşdım səs gələn yerə. Gördüm ki, oxuyan həqiqətən Qıdı kirvədi, məşhur eşşəyi də yanında. Zoğal ağacının altında süfrə açıb, kartof soyutması yetir. Süfrədə də tut arağı. Axı Vəzirovun Qıdı kirvəsi də deyərdi ki, "kartoçka qazanım ocaxın üstündə, tut arağlm bol, çaxırım bol"!. Bildim ki, bu erməni Qıdı kirvənin nəslindəndi. Sifətdən də, bığından da elə bil özü idi ki, durmuşdu. Qorxmadım. Yaxınlaşıb türkcə salam verdim. Əvvəl-əvvəl bərk qorxdu. Durub qaçmaq istədi. Sonra biləndə ki, mən də Hacı Qəmbərin nəvəsiyəm, rahatlayıb məni süfrəyə dəvət elədi. Xülasə, nə başınızı ağrıdım, Qıdı kirvənin nəvəsi ilə oturdum süfrəyə. Ye ki yeyəsən, iç ki içəsən, Qıdının nəvəsi oldu lülqəmbər! Başladı, nə başladı:

- Ara, elə bunnarın evini allax yıxsın. Gul kimi yaçıyırdıx li... Ha... Ara bizim nayımıza lazımdı hayastan? Burda nayımız askik idi? O Zorinin, Silvanın evları yıxılsın. Onnar camaatı başdan elədi, akılsız haylar da duşdular onun dalısıycan. Mazhab haqqı, manım babam Qıdı danışardı ki, ara, bu musurmannar çox yakşı adamlardı. Onnara xain olmasan, evini, mulkunu da sana verar. Ha, elə man da görmuşdum da... Amma Qıdı bavam deyardı ki, mabada, bu musurmannara xainlik edasan, naslını kasar sanin. Ara man na qadar dedim bu kopayuşaqına ki, etmeyin, elemeyin, baxmadılar sozuma. Robertin, Serjikin, Vitalikin kuyuna getdilar. Budu ey, indi duşublar əl-ayaqa. Galirlar yanıma ki, sanın bavan musurmannarnan dost olub, əl uzat onnara, bəlkə bizim gunaxımızdan keçəllər, qayıdıb dost olarıx. Man da deyiram ki, çe, man heç na deya bilmaram. Ara, Sovet hökuməti çezandan sora bizim kandımızdan beş-altı adam yığışıb hayların adından Azərbaycan hökumatına yazdılar ki, biz hayastan-flan istamırıx, kandımızdakı quldurları burdan radd eliyin, biz Azarbaycanda yaşamax istiyirıx. Heç ustundan bir həftə keçmadı, haman quldurlara xavar çatdı, galıb kandda o maktuba qol çakanların hamısın gullaladılar. Onnan sora hamının gozu qorxdu,

Qıdı kirvənin nəvəsinin belə yamıqlı etiraflarını dinlədikcə, içimdən keçdi ki, buna bir-iki sual şappıldadım, görüm nə deyir. Odur ki, necə yaşamaları, indi nə etmək istədikləri ilə bağlı sualları səpələdim. Qıdının nəvəsi iki dizinə əlləri ilə şappıldadıb ayağa durdu:

- Ara, ay dali musurman, bayaxdan sana na deyiram bəs? Ara heç kim uşax akmir ki, on-on iki yaşı olan kimi galib zorla alımızdan alıb aparacaqlar ki, vatanı qorumalıdı. Ara, hansı vatanı? Ara bura bizim vatandı ki, onu qoruyaq? Demaxdan yoruldum ki, ara vu yerlar musurmannarın vatanıdı, galib hamımızın anasını... (oxucular bağışlasın, Qıdının nəvəsinin o kəlməsini qəzetdə yaza bılmərəm-T.N.), onda hamımız peşman olacağıx, amma gej olajax. Ha, indi bax, bu yerların saxibları galib, indi çıxın qavaxlarına. Zori murduxos olub getdi, Silva da getdi. Hanı Robik, hanı Serjik, hanı Vitalik? Galsınlar da... Ha, bax bunnara bela lazımdı. İndi Arayik deyir ki, qorxmayın, urusdar galajax, bizi qurtarajax. Ala ha (baş barmağını şəhadət və orta barmağının arasından çıxarıb Xankəndə tərəf uzatdı-T.N.), gözla, galajax. Urus ozun kutarsın, gözax natar kutarır.

Söhbətin bu yerində güllə səsinə yuxudan ayıldım. Bilmədim o güllə səsi də yuxuda gəldi, yoxsa ... Nə bilim, vallah!

***Deyirlər gözəllik nisbi anlayışdır, birinin bəyəndiyi böyük dodaqlar başqa birinin xoşuna gəlmir. Başqasında gördüyünüz qaynaq saçlar sizə yaraşmasa belə onu israrla etdirirsiniz. Azacıq qırış düşmüş simasına dolğu etdirmək üçün həkimləri, gözəllik prosedurlarını günlərlə araşdıranlar da çoxdur. Kimi ucuza qaçıb gözəllik salonlarında mənşəyi məlum olmayan dolğuları öz dərisinə daxil etməyi heç bir tibbi savadı olmayan insanlara həvalə edir, kimisi də işin peşəkarına etibar edir.***



# Gözəllik ondur, doqquzu süni gel - TƏHLÜKƏ

## *Gözəllik salonlarında tibbi müdaxilələr qadınlara həyati təhlükə yaradır*

### Zərərçəkən: "Dodaqlarım çürüyür"

Bəzən mediada da yayılır, dolğu qurbanları gözəllik salonlarında etdirdiyi prosedura görə sağlamlıq problemləri yaşadığını, iltihab yarandığını deyirlər. Türkmənistanda bu sahədə olduqca çox problem yaşandığı üçün hökumət gözəllik salonlarında tibbi müdaxilə prosedurlarının tətbiq edilməsini qadağan edib. Bir çox Avropa ölkəsində, habelə Amerikada süni gel tətbiqi qanunla qadağandır.

Gülər Həsənlini də sosial şəbəkədən tanıyıram, qadın səhifələrində dolğu ilə bağlı problem yaşadığını, dodağının çürüdüyünü yazırdı. 2 il əvvəl Bakıdakı gözəllik salonlarından birində dodağına "gel" deyilən maddə vurdurduğunu deyir: "Saçlarımı kəsdirmək üçün salona getmişdim, usta dedi ki dodaqlarıma gel vurulsa çox yaxşı görünər. Dedi 1 qramı 60 manatdır, həkimlər eyni miqdarda gel üçün 150-200 manat alırlar. Aldandım, vurdurdum dodağıma. O gündən sonra mən həkimlərdəyəm, dodaqlarımdan irin, çirk axır, şişir. O salona getdim dəfələrlə, o qadını tapıb etdiyinə görə cavab verməsini istəyirdim, amma özünü gizlədi, sonra da harasa köçüb getdi. Olan mənə oldu. Çox peşmanam, həkim olmayan birinə etdirdiyim üçün, salonda etdirdiyim üçün".



### Bədəninizə nə yeridirlər?

Bədənə yeridilən yad maddə silikon - silisium qum tərkibli üzvi maddədir. Bu maddə həm gel, həm maye, həm də sərt formada olur. Müasir tibbdə bu maddə estetik məqsədlər üçün çənəyə, süd vəzilərinə, yanaqlara və bədənin müxtəlif yerlərində olan çuxur yerləri doldurmaq üçün istifadə edilir. Dodaqlara vurulan maddə isə dolğu vasitəsidir. Dolğu təbii və süni ola bilir, sovrulan və sovrulmayan.

İnkişaf etmiş ölkələrdə 90 faiz sovrula bilən dolğu maddələrindən istifadə edilir. Dolğu maddələri daha çox üz gəncləşdirmədə, üzdə olan estetik çatışmazlıqları, simmetrik qüsurları örtmək, dodaqları böyütmək, qırışlar olan nahiyənin altını doldurmaq məqsədilə də istifadə olunur. Əməliyyat yüngül prosedurdur, lakin ciddidir. Dolğu maddələrindən ən çox geoleron, laktik və kalsium hidroxlorid apasid turşusundan istifadə edilir. Bunlar sovrulan maddədir və 6-10 ay arasında toxumalarda yox olur və tətbiq edilən nahiyə əvvəlki vəziyyətinə qayıdır.

### Dolğu əməliyyatı gözəllik yox, tibbi prosedurdur

Əslində dolğu bu gün əksər qadınların, hətta kişilərin də istifadə etdiyi bir estetik prosedurdur. Prosedurdan istifadə etmək o qədər yayılıb ki indi hətta gözəllik salonlarında da müştərilərə tətbiq edilir. Bu bir tibbi prosedurdur və həkim nəzarətində həyata keçirilməlidir, lakin nə edənlər, nə də etdirənlər üçün bu xəbərdarlıq vacib hesab edilmir. Dolğu üçün gözəllik salonlarına üz tutulmasının əsas səbəbi isə ucuz qiymətdir.

Hər sima gözəldir, hər üz spesifik quruluşa malikdir. Üzümüzün davamlı olaraq mimika və jestlərlə hərəkət etdiyini nəzərə alsaq ora dolğu etdirməyin də təhlükəli ola biləcəyini düşünməliyik. Ona görə üzünüzdəki hansı nahiyənin doldurulması lazım olduğuna özünüz qərar verməyin. İşi peşəkarların öhdəsinə buraxmayanda ya mimikanı itirirsən, ya da iltihablanmış bir siman olur.

Üzünüzə, bədəninizə, hətta barmağınıza belə gözəllik salonlarında müdaxilə edilməsinə izin verməyin, əgər dolğunu mütləq etdirmək istəyirsinizsə bunu mütləq həkim etməlidir. Gözəllik salonları, bərbər kimi yerlərdə bu prosedurların aparılması əslində qadağandır. Bu qadağa sağlamlığınızı qorumaq üçündür. Tibbi müdaxilə üçün müəssisənin lisenziyasının olması mütləqdir, eyni zamanda bu proseduru edəcək şəxs də tibbi təhsilə sahib olmalıdır.

### İflic ola bilərsiniz!

Bədənizə yad maye vurulursa unutmayın ki, qısa müddətdə allergiya, laxtalanma, qanqrena, görmə və eşitmə itkisi, venadaxili yeridildikdə iflic kimi problemlər yaşaya bilərsiniz. Prosedurun həyata keçirildiyi yer lisenziyalı klinikadırsa və qəfil bir şey baş versə təcili tibbi yardım və tibbi cihazlar həyatınızı xilas edəcək. Amma gözəllik salonunda sizin bədəniz o maddəyə reaksiya versə, şoka girsəniz sizi xilas edəcək nə həkim olacaq, nə də tibbi müdaxilə.

Əgər israrla dolğu etdirmək fikriniz varsa bir neçə təcrübəli və etibarlı klinikalardan qiymətləri soruşun. Sizə bu proseduru çox aşağı qiymətə edəcəyini deyən klinikalar və həkimlər də ola bilər. Əgər çoxluğun eyni qiyməti dediyi proseduru bir klinika və ya həkim olduğunu iddia edən şəxs yarı qiymətinə təklif edirsə unutmayın ki, ya keyfiyyətsiz məhsuldan istifadə edir, ya da bu işi görmək səlahiyyəti yoxdur. Sağlamlığınız büdcənizdən daha vacibdir.

### Əyri ayaqlara, nahamar buruna müdaxilə edirlər

Sosial şəbəkələrdə gözəllik salonları, yağışdan sonra çıxan göbələklər kimi hər gün artan estetik mərkəzlər bir-biri ilə bəhsə girib. Kimisi azacıq donqar burnu dolğu ilə hamarlaşdırdığı görüntüləri paylaşır, kimisi əyri ayaqlara dolğu vurularaq düzləşdirməni nümayiş etdirir. Paylaşımlara verilən reaksiyadan, yazılan şərhlərdən görünür ki, tələbat da çoxdur. Estetik mərkəz adı altında fəaliyyət göstərən obyektlərdə edilən tibbi müdaxilələr daha çox olur. Əksəriyyətinin lisenziyası yoxdur, özünü estetik, kosmetoloq həkim kimi təqdim edən şəxslərin ali tibbi savadı olmur, qonşu ölkələrdə bir neçə dəfə seminar keçməklə özünü estetik-həkim adlandırır.

Burun korreksiyası adlı prosedurla burundakı əyriliyi, simmetrik nahamarlığı gel tətbiq edərək aradan qaldırırlar. Yəni bu prosedur burunun əməliyyatsız daha estetik hala gətirilməsi üçündür. Burnunu əməliyyat etdirə bilməyənlər, dikləşdirmək istəyənlər, burundakı kiçik boşluğu doldurmaq istəyənlər bu proseduru etdirirlər. 15-20 dəqiqləlik prosedurun 1.5-2 il qalıcılıq müddəti olur. Əgər tibbi bir mərkəzdə və peşəkar həkim tərəfindən edilsə problem yaranmaz, alkin gözəllik salonlarında orta təhsili belə tam olmayan ustaların əli ilə edilir. Nəticədə ya burnunuz çürüyür, ya da bədəninizdə anlamadığınız və sizi narahat edən proseslər gedir.

Ayaqlardakı simmetrik uyğunsuzluq da dolğu vasitəsi ilə düzləşdirilə bilər. Lakin bunu da işinin peşəkarına və steril kilinika şəraitində etdirmək vacibdir. Bir neçə il öncə Bakıdakı gözəllik mərkəzlərindən birində ayağına kosmetoloq tərəfindən süni gel vurulan qadın mətbuata açıqlama vermişdi, onun ayaqlarının kəsilmə təhlükəsi vardı. Dəfələrlə əmliyyata girmiş, ayaqlarındakı gel xaric edilmişdi, lakin gel artıq toxumalara nüfuz etdiyi üçün qadının hərəkəti məhdudlaşmış, iş qabiliyyətini itirmişdi. Məhkəmə çəkişməsi hələ də davam edir.

### Bəs sterilizasiya?

Harda olmasından asılı olmayaraq prosedur aparılan yerlərdə ilk növbədə sterilizasiya qaydalarına əməl edilməlidir. Müasir salonlarda isə adi qaynama vasitələrindən (!), əgər işləyirsə üzərində "sterilizer" sözü yazılan alətdən istifadə edilir.













Ekspertlər hesab edir ki, bunlar virus infeksiyalarını məhv etmək üçün yetərli deyil. İstifadə edilən alətlərin steril olması, prosedurun icra edildiyi məkanın standartlara cavab verməsi vacibdir. Yazıda adıçəkilən xidmətləri göstərmək üçün peşəkar mütəxəssislərə və Səhiyyə Nazirliyindən alınan müvafiq sertifikatlara ehtiyac var, amma bu gün bu xidmətləri göstərən mərkəzlərin hamısı bu şərtlərə cavb verirmi?

Azərbaycan qanunlarına görə Səhiyyə Nazirliyi gözəllik salonlarında yoxlamalar apara bilməz. Bu işlə prokurorluq məşğul olur, o halda ki şikayət olsun. Bu sahədəki xaotik vəziyyətin bir səbəbi də Tibb Universitetində kosmetologiya fakültəsinin olmamağıdır. Ona görə də hazırda ölkəmizdə bu sahə üzrə özünü mütəxəssis sayanların böyük əksəriyyəti əslində kosmetoloq-həkim deyillər.

***Lalə Mehralı***

# Dindarlıq, yoxsa dəb?



***Etiqad etdiyi dinin əmr və qadağalarına tabe olan insanlara dindar deyilir. Dindarlar Allahın birliyinə və kainatdakı hər şeyin Allah tərəfindən yaradıldığına inanırlar. Son zamanlar ölkəmizdə dindar insanların sayı çox artıb. Bunu yaxın ətrafdan da müşahidə etmək mümkündür. Belə ki, 10 nəfərdən 7-si artıq namaz qılır, ibadət edir. Bəs, bu müsbət, yoxsa mənfi haldırmı? Dindar insanlar kimlərdir? SİA mövzu ilə bağlı araşdırma edib.***

### Dindarlığın əlamətləri hansılardır?

Mömininin və ya dindarın üç əsas xüsusiyyəti var: Allaha qarşı sarsılmaz bir imana sahibi olmaq, lazım gəldikdə mal və sərvəti Allah rizası üçün fəda edə bilmək, etibarlı, etimadlı və bəladan uzaq olan biri olmaq.

### Dindar insan kimdir?

Dindar lüğətdə "köklü dini etiqadlı, dini qaydalara əməl edən, təqvalı" mənasındadır. Allahın halal saydığı şeylərə üz tutanlara, haramdan çəkinənlərə, dinlərinin əmrlərinə tamamilə tabe olanlara, dünyanın və kainatın ilahi bir qüvvə tərəfindən yaradıldığına inananlara dindar deyilir.

### Dindarlığın miqyası nədir?

Dindarlığın bu beş ölçüsü; ibadət ölçüsü, inanc ölçüsü, dini bilik ölçüsü, dini təcrübə ölçüsü və dinin sosial təsiri.

### Dindarlığın ölçüləri hansılardır?

Quranda ifadə edilən dindarlığın altı ölçüsü olduğu anlaşılır: Bunlar inanc ölçüsü, ibadət ölçüsü, əxlaqi ölçü, düşüncə ölçüsü, duyğu ölçüsü və bilik ölçüsüdür.

### Qatı-dindar nədir?

Fundamentalizm (radikal dindarlıq, dini fundamentalizm və ya ekstremizm) çox vaxt dinin fundamental prinsiplərinə qayıdış tələbi ilə səciyyələnən, digər baxışlara qəti şəkildə riayət edən və onlara dözümsüzlük göstərən antisekulyar dini cərəyan və ya nöqteyi-nəzərdir.

Dini tədqiqatçı Vüqar Abbasov: "Əlbəttə ki, Allaha yaxınlaşmaq müsbət bir haldır. Amma bunu dini biliyə sahib olaraq etmək lazımdır. Dini biliyi də Allahın kitabı olan Quranı oxumaqla ala bilərik. Bu kitabı Allah bizə göndərib ki, qiyamət gününə kimi qoruyub saxlayaq.

Bugün nə məscidlərdə, nə də televiziyada Qurandan danışılmır. Belə ki, ancaq hədislərdən bəhs olunur. Quranda bir ayə, 20-30 hədis deyirlərş Bu çox absurddur. İnsanlara birinci Quranı öyrətmək lazımdır. Çünki saxta hədislər o qədərdir ki, insanlar hansının həqiqi və saxta olduğunu aydınlaşdıra bilmir. Hədis Qurana uyğundursa, deməli həqiqidir. Yəni, Quranda deyiləni təstiq edirsə, deməli həqiqətdir. Əks halda saxtadır. Bu gün namaz qılmağı ərəb dilində təbliğ edirlər. 30-40 ildir namaz qılan insanlar var ki, nə oxuduğunu bilmirlər. Məsləhətim odur ki, insanlar birinci Quranı öyrənsinlər daha sonra namaz qılmağa və dindarlığa başlasınlar. Dindar ailələrə sual verin ki, "Onların neçə faizi Quranı Azərbaycan dilində bilir və övladlarına öyrədib?".

***Ayşən Vəli***

# "Ermənilərin həyasızlığı və savadsızlığı heyrət doğurur"



***"Xankəndi-Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması, yaxud, qurulmaması haqqında 10 noyabr bəyanatının 6-cı bəndində heç bir müddəa yoxdur. Bu səbəbdən ermənilərin bəyanatın 6-cı bəndinin tələblərinin pozulması barədə iddiaları son dərəcə əsassızdır". SİA xəbər verir ki, bunu siyasi ekspert Abutalıb Səmədov "Səs" qəzetinə açıqlamasında deyib. Onun sözlərinə görə, ermənilərin həyasızlığı və savadsızlığı heyrət doğurur: "Biz onların nə qədər həyasız, şər-böhtan söyləyən olduqlarını yaxşı bilirdik və buna qətiyyən təəccüblənmədik.***

Ancaq bu qədər savadsız olmaları qətiyyən gözlənilən deyildi. Fikir verin, neçə ildir ki, N.Paşinyan "Laçın koridoru"nun xüsusi rejimindən danışır. İddia edir ki, bu yolda nəzarət-buraxılış məntəqəsi qurula bilməz. Onun düşüncəsinə görə ermənilər hər iki istiqamətdə maneəsiz hərəkət etməli və heç bir yoxlamaya məruz qalmamalıdırlar.

Baxmayaraq ki, "maneəsiz hərəkət" 10 noyabr bəyanatının 9-cu bəndinə görə "Zəngəzur dəhlizi"ndə nəzərdə tutulub. Bunu nəzərə almaq istəməyən ermənilər dəhlizdə nəzarət-buraxılış məntəqəsi qurmaqda qərarlıdırlar. Laçın yolu ilə bağlı "maneəsiz hərəkət" tələbi 10 noyabr bəyanatında yer almadığı və bu yolda nəzarət-buraxılış məntəqəsinin qurulmasının bəyanata zidd olmadığı halda ermənilər yenə "şivən" qopararaq bütün dünyanı üstümüzə qaldırmağa çalışırlar. Bu cür davranışa nə qədər adət etmiş olsaq da ermənilərin bu davranışı ikrah doğurmaya bilmir".

"Sizcə, bundan sonra Xankəndindəki separatçılara qarşı münasibət necə olacaq" sualına cavabında A.Səmədov bildirib ki, Xankəndidəki separatçılara münasibət barədə Azərbaycan Prezidenti bu günlərdə açıq danışıb: "Bəyan edib ki, Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul edəcəklər, ya da ölkəmizin ərazisini tərk edib gedəcəklər. Hələlik görünən odur ki, ermənilərin "liderləri" bu reallığı qəbul etmək istəmirlər və müqavimət göstərməyə hazırlaşırlar. Ancaq bu cəhdlər əbəsdir. Heç kim Qarabağda Azərbaycanın suverenliyinin təmin olunmasının qarşısını ala bilməz. Nə qədər gec deyil, ermənilər ağıllarını başlarına yığmalı və Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər. Əks halda özlərinə yeni yaşayış yeri axtarmaq məcburiyyətində qalacaqlar. Sadə ermənilər bir şeyi nəzərə almalıdırlar ki, onları müqavimətə çağıran Araik Arutyunyanın və ətrafındakı cinayətkar dəstənin kifayət qədər pulları, həm Ermənistanda, həm də digər yerlərdə evləri var. Onlar heç bir çətinlik çəkmədən bolluq içərisində yaşamağa davam edəcəklər. Bu cür avantürist "liderlərin" əməllərinin əziyyətini isə sadə ermənilər çəkəcəklər. Yeri gəlmişkən, sərhəddə nəzarət-buraxılış məntəqəsinin qurulması ermənilərin vətəndaşlıq barədə seçim etməsini sürətləndirəcək".

***GÜLYANƏ***



# Yollarda vətəndaş müharibəsi

**Elçin Bayramlı**

***2022-ci ildə 1668 çox yol-nəqliyyat hadisəsi baş verib (2021-ci illə müqayisədə qəzaların sayı 1,2 faiz artıb), bu hadisələr nəticəsində zərər çəkən şəxslərin sayı 6,1 faiz artaraq 2290 nəfər olub. Onlardan 834-ü həlak olub, 1456-sı isə yaralanıb.***

2020-ci ildə isə avtoqəzalarda zərərçəkənlərin sayı 2106 nəfər olmuşdu. Onlardan 696-sı həlak olmuş, 1410-u isə yaralanmışdır. Göründüyü kimi, yol nəqliyyat infrastrukturunun getdikcə təkmilləşdirilməsinə baxmayaraq, ölüm sayında ciddi artım var.

Bir sözlə, yollarda sanki elan olunmamış vətəndaş müharibəsi gedir. Bu, əsl müharibədir- maşınların öz arasında və piyadalarla müharibəsi. Son 30 ildə bu müharibədə indiyədək ermənilər apardığımız müharibədən daha çox qurban vermişik- 30 mindən çox. Və bu müharibə dayanmır. Vətəndaşlarımızın cəsədləri hər gün küçə və yollara səpələnir. Minlərlə insan məsuliyyətsiz sürücülərin ucbatından həyatını itirir, şikəst olur, ailələr bədbəxtliyə düçar olur.

Bəs səbəblər nədədir? Bəziləri bunun səbəbini avtomobillərin sayının artması kimi gülünc səbəblərlə izah etməyə çalışsa da, fikrimizcə, burada tamam başqa səbəblər var.

İlk və ən əsas səbəb rüşvət müqabilində sürücülük vəsiqəsinin verilməsidir. Yəni, istənilən pulu olan adam minimum 1300 manat rüşvət verməklə "prava" alıb yollarda maşınla at oynada bilir. Müşahidələrdən görünür ki, ölkəmizdəki sürücülərin əksəriyyəti vəsiqəni bu yolla alıb və onlar təzədən imtahan versə, heç cür keçə bilməzlər.

İkinci səbəb bəzi yol polislərinin "qarşılıqlı hörmət" prinsipi ilə işləməsidir. Sərxoş halda avtomobil idarə edən sürücüdən, ya da avtoşlardan "5-10 manat" alıb yola davam işarəsi verməklə qarşıdakı dəqiqələrdə daha bir neçə nəfərin cəsədlərinin yola səpələnməsinə biləbərəkdən şərait yaratmaqdır. Bəzi sürücülər isə yuxarı yerlərdəndir, məsələn vəzifəli şəxsin qohumudur, onu saxlayan polis qorxusundan o saat "buyurun, yola davam edin, bağışlayın, bilməmişik ki, "Həsən ağa"nın qohumusunuz" deməyə məcbur olur.

Üçüncü səbəb piyadalarla bağlıdır. Əksər piyadaların hərəkəti xaotik və məsuliyyətsizcəsinədir. Bəzən avtobanlarda belə özlərini yolun ortasına atır, bəzən yeraltı piyada keçidlərinin düz üstündə sürətli yola çıxır. Məhz bu səbəbdən, piyada vurulması ilə nəticələnən qəzaların yarıya yaxını piyadaların günahı ucbatından baş verir.

Dördüncü səbəb, bir çox köhnə və xarab avtomobillərin rüşvət müqabilində texniki baxışdan keçməsi ilə bağlıdır. Belə istismara yararsız, təhlükəli maşınlar gah əyləc mexanizminin, gah da digər mexanizmlərin ani xarab olması nəticəsində qəza törədir.

Beşinci səbəb yol infrastrukturunun, yol nişanlamalarının qaydasında olmamasıdır. Xüsusən də, təmir işi aparılan yollarda nişanlamaların düzgün qoyulmaması gecə vaxtlarında maşınların qazılmış çalalara düşməsi, işqlandırılmayan yollarda qəzaya düşməsi ilə nəticələnir.

Cavabdeh təşkilatların "tədbir görürük" deməsinə rəğmən yol terrorunun qurbanları artır. Aidiyyatı təşkilatların cavabı standartdır- "tərəfimizdən müvafiq tədbirlər görülür". Görülürsə, soruşmaq ayıb olmasın, bəs hanı nəticəsi?

Düzdür, Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və "Yol hərəkəti haqqında" qanuna edilən dəyişikliklərlə cəzalar sərtləşdirilib, cərimələr artıb, amma bu praktikada öz bəhrəsini hələ ki verə bilməyib.

Problemin nəticələri ilə yox, səbəblərinin aradan qaldırılması ilə uğraşmaq lazımdır. Hər yerə kamera qoyub maşınların insanları necə tikə-parça etməsini televiziya və internetdən əhaliyə izlətməkdənsə, yuxarıda qeyd etdiyim halları aradan qaldırılmasına çalışılsa yaxşı olar.

# "Laçın yolunda post qurmaq Azərbaycan üçün zəruri və məcburi idi"

***Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində Azərbaycanın Laçın yolunda keçid məntəqəsinin quraşdırılmasının Ermənistan-Azərbaycan nizamlanma prosesinin gələcəyi üçün nə demək olduğundan danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***



**İqor Korotçenko: "Laçın yolunda Azərbaycan tərəfindən keçid məntəqəsinin quraşdırılmasına Qərbin kəskin mənfi reaksiyası təəccüblü deyil"**

**- İqor Yuryeviç, Azərbaycan bir neçə gün əvvəl Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin quraşdırılmasını elan edib. Baş verənlər Ermənistanın Laçın yolu ətrafında sonsuz təxribatları fonunda yaranmış vəziyyətin məntiqi nəticəsidirmi?**

- Azərbaycanın bu addımı Ermənistanın üçtərəfli bəyanatın imzalanmasından keçən iki ildən artıq müddətdə erməni liderlərinin törətdiyi silsilə təxribatlardan sonra məcburi və zəruri tədbirə çevrildi. Son günlər baş verən təxribatlar-Ermənistan tərəfinin Laçın yolundan yan keçərək Qarabağa silah, canlı qüvvə, mina, döyüş sursatı daşıması, burada hərbi infrastruktur qurması Azərbaycanın səbrini daşırdı. Həmçinin ötən həftənin sonunda Şuşa ətrafında Azərbaycanın silahlı qüvvələrinə məxsus yük avtomobili İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra erməni diversantları tərəfindən quraşdırılan minalarla partladılıb. İşğaldan azad edilmiş Azərbaycan ərazilərində Ermənistan tərəfinin quraşdırdığı minaların 2021-ci ildə, yəni İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra istehsal olunduğu faktları ilk dəfə deyil.

İrəvanın siyasətinin konstruktivlik istiqamətində dəyişməsini uzun müddət gözlədikdən sonra Azərbaycanın qəbul etdiyi qərar indi Ermənistan tərəfinin Laçın yolundan cinayətkar istifadəsini qeyri-mümkün edəcək. İndi erməni tərəfi Qarabağda öz hərbi personalını rotasiya etdirə, Qarabağa silah-sursat verə bilməyəcək. Bu iş bitdi. Baş verənlər Ermənistanın qeyri-konstruktiv siyasətinin nəticəsidir. Və bütün iddiaları, narazılıqları Ermənistan özü həll etməlidir. Belə olan halda Azərbaycan hakimiyyəti təhlükəsizliyin təmin edilməsi məsələsini rəhbər tutdu və bu nəzarət forması hüququndan istifadə etdi.

Azərbaycan bir daha siyasi iradə nümayiş etdirdi. O, özünü aldatmağa imkan verməyəcəyini göstərdi. 2,5 il Ermənistanın danışıqlara tam qadir olmadığını, İrəvanın isə Paşinyanın imzaladığı öhdəlikləri yerinə yetirmək istəmədiyini göstərdi. Yaxşı, Azərbaycan daha nə qədər gözləməli idi, Azərbaycan hərbçiləri, dinc əhali nə qədər erməni diversantlarının minaları ilə partladılmalı idi?! Azərbaycan işləri qaydasına saldı.

Ermənistanın gec-tez Azərbaycandan belə bir cavab alacağı heç kimə sirr deyildi, amma nədənsə erməni tərəfi ona hər şeyin icazəli olduğuna inanırdı. Bakının davamlı xəbərdarlıqlarına, izahat tələb etməsinə, hətta birbaşa məlumat ötürülməsinə baxmayaraq, İrəvandan heç bir adekvat reaksiya olmadı. Amma indi yeni reallıq gəlir, daha doğrusu, artıq gəlib. Azərbaycanın bu addımı üçtərəfli bəyanatı pozmur.

Rəsmi açıqlamalardan da göründüyü kimi, Azərbaycan öz qərarı ilə bağlı Rusiya sülhməramlı kontingentinin rəhbərliyini, eləcə də Rusiya-Türkiyə monitorinq mərkəzini xəbərdar edib. Hətta belə fors-major şəraitdə də Azərbaycan müvafiq olaraq Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatından irəli gələn öhdəliklərə sadiqliyini çox açıq şəkildə bəyan etdi. Keçid məntəqəsində yüklərə nəzarət, yoxlanış prosesini Azərbaycan tərəfi və Rusiya sülhməramlıları birlikdə həyata keçirəcək.

Humanitar, mülki yüklərin hərəkətinə heç bir maneə, təcili yardım maşınlarının, vətəndaşların keçməsində problem olmayacaq. Xankəndində adi mülki şəxs maşına minib Ermənistana gedib geri qayıda bilər. Yeganə fərq ondadır ki, yoxlama proseduru bütün dünyada olduğu kimi yolda da aparılacaq. Laçın yolu indi sülh yoluna çevrilir, indiyədək isə arxa qapı idi, oradan erməni nümayəndələrinin gördüyü hər şeyi gətirib çıxarmaq mümkün idi. Bu isə təkcə hərbi yüklərə aid deyildi, çünki Ermənistan Qarabağda təbii sərvətlərin qanunsuz olaraq yırtıcı yolla çıxarılması və Ermənistana ixracı həyata keçirib, bununla da öz kölgə fəaliyyətindən külli miqdarda gəlir əldə edib. İrəvanın Azərbaycanın bu addımının hansısa "soyqırım" məqsədi daşıdığı barədə bəyanatlar səsləndirməsi növbəti təbliğat cəfəngiyyatıdır.

**- Bu vəziyyətə "Zəngəzur dəhlizi" layihəsinin reallaşdırılması perspektivləri cəhətdən necə baxmaq olar? Axı biz xatırlayırıq ki, İlham Əliyev dəfələrlə qeyd edib ki, İrəvanın layihənin dəhliz məntiqindən imtina etdiyi bir şəraitdə Azərbaycanın nəzarəti Laçın dəhlizində əks olunacaq.**

- Ermənistan ötən il baş nazir Nikol Paşinyan vasitəsilə Zəngəzur nəqliyyat dəhlizi layihəsini həyata keçirməkdən imtina etdi. O vaxtdan bəri İrəvandan bununla bağlı heç bir müsbət rəsmi şərh görmədik. Hər halda, üçtərəfli bəyanat var, Ermənistan Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan hissəsi arasında maneəsiz hərəkəti təmin etmək öhdəliyini öz üzərinə götürüb. Bu öhdəlik altında Ermənistan baş nazirinin imzası var. Amma İrəvan "Zəngəzur dəhlizi" layihəsinin həyata keçirilməsini anlaşılmaz şəkildə şərh etməyə cəhd etməkdə davam edir.

Ərazidə geri dönməz dəyişikliklər baş verir. O cümlədən Zəngəzur dəhlizi məsələsində. Azərbaycan bir daha göstərdi ki, sakit, səbirlə, amma öz yolunu tutub ədalət axtarır.

Mən həmişə demişəm ki, İlham Əliyev hər hansı bəyanat verirsə, bu sadəcə söz deyil, şüurlu siyasi mövqedir. İlham Əliyev dəfələrlə bildirib ki, Ermənistan təxribatlarını dayandırmalıdır, əks halda ona proporsional cavab veriləcək. Eşitmədilər. İkinci Qarabağ müharibəsinin nəticələri göstərdi ki, Azərbaycanın sözü əməldən uzaqlaşmır. Azərbaycan özü Ermənistana sülh müqaviləsi imzalamaq təklifi ilə çıxış edir, Ermənistanı öz qonşusu hesab etdiyini, mehriban qonşuluq münasibətlərində maraqlı olduğunu, ərazi bütövlüyünün qarşılıqlı tanınmasında maraqlı olduğunu qeyd edir. Ermənistan tərəfi də buna məhəl qoymayıb. Nəticələri görürük. Azərbaycan çağırış və təhdidlərə necə cavab verə biləcəyini, cavab verə biləcəyini bir daha göstərdi.

**- Paşinyan ikinci həftədir ki, informasiya nöqteyi-nəzərindən müəyyən mənada sülh məramlı olduğunu nümayiş etdirməyə çalışır. Aprelin 24-də "erməni soyqırımı" ilə bağlı keçirilən tədbirlərdə o, mahiyyətcə İrəvanın sülh strategiyasını, qonşuları ilə münasibətləri inkişaf etdirməyi seçdiyini bəyan etdi... Və paralel olaraq Ermənistan XİN Azərbaycanı bütün günahlarda ittiham edir.**

- Nikol Vovayeviç siyasi demaqogiya sahəsindəki məharəti ilə məşhurdur. Təcrübə göstərir ki, onun dinc bəyanatları hər an düşmənçilik ritorikası ilə əvəz oluna bilər. Biz bunu, o cümlədən Ermənistan-Rusiya münasibətlərinin timsalında Ermənistanın KTMT-yə münasibətində görmüşük və görməkdə də davam edirik. Paşinyanın sözlərinin heç bir dəyəri yoxdur. Bu gün bir şey deyir, sabah başqa şey. Sülhsevər ritorika onun müəyyən hadisələrin necə inkişaf etməsindən asılı olaraq istifadə etdiyi bir növ siyasi mimikadır.

**- Azərbaycana qarşı keçid məntəqəsinin quraşdırılmasına ilk mənfi reaksiya verən ABŞ və Fransa oldu. Onlar həmçinin bildirdilər ki, Azərbaycanın bu addımı hər iki tərəfin sülh prosesinə zərbə vurur... Amma həmişə olduğu kimi, Ermənistanın sülh prosesini pozmaq üçün dəfələrlə atdığı addımları xatırlamırlar.**

- ABŞ və Fransa yaxşı bilirlər ki, Azərbaycan güclənir, bir dövlət kimi regionda, beynəlxalq aləmdə mövqelərini möhkəmləndirir, Ermənistanla münasibətlərin normallaşdırılması məsələsində mövqeləri möhkəm olaraq qalır. Qərb güclü Azərbaycanda maraqlı deyil. Azərbaycanın başında enerji, siyasi və iqtisadi sahədə əlaqələr quran, Qərbin hesablaşmaq məcburiyyətində qaldığı siyasətçi dayanır. Nikol Paşinyan isə sırf Qərb layihəsidir. Paşinyanın bütün uğursuzluqları isə, ilk növbədə, Qərb kuratorlarının uğursuzluqlarıdır. Ona görə də Azərbaycan tərəfindən keçid məntəqəsinin quraşdırılmasına Qərbin reaksiyası belə kəskin mənfi reaksiyadır.

Azərbaycan yaxşı bilir ki, müasir dünyada Qərbdə dost gözləmək olmaz. Ona görə də Azərbaycan diplomatiyası bu cür "narahatlıqlara" sakit, lakin sərt reaksiya verəcək. Çünki bütün qərarlar artıq verilib. Və siz geri oynaya bilməzsiniz. Öz ölkələrində erməni diasporunun maraqlarına xidmət edən amerikalı və fransız lobbiçilərinin Azərbaycan əleyhinə bəyanatlar vermək cəhdləri kimi - bütün bu bəyanatlar siyasi baxımdan əhəmiyyətsizdir.

**- İrəvan artıq burada öz "informasiya-siyasi alətlərini" nöqtəli şəkildə tətbiq etməyə çalışır. Fransa Senatının "Respublikaçılar" fraksiyasının rəhbəri qəflətən Azərbaycanın yaratdığı keçid məntəqəsinin ərazisində peyda olub. Onu qəbul edən Ermənistanın baş naziri təbii ki, şikayət edib.**

- Daha bir zarafatcıl, qəribə fransalı. Biz bunların çoxunu görmüşük. Onların mövqeyi dəyərsizdir. Fransa parlamentariləri indi Fransanın özündə gedən proseslərə daha çox diqqət yetirməlidirlər. Xalq üsyan etdi- biz Paris küçələrində yanğınlar, polisin nümayişçilərin kütləvi şəkildə döyülməsini görürük. Fransa vətəndaşların hüquq və azadlıqlarının kütləvi şəkildə pozulduğu ölkədir. Qoy bu fransız parlamentari Azərbaycana nəsə öyrətməkdənsə, bu gün Fransa hakimiyyətinin nümayiş etdirdiyi vətəndaşlarla rəftar üsullarının yolverilməzliyini Makrona desin. Paris bu gün kiməsə "demokratiya" öyrətmək üçün deyil, həll edilməli olan öz problemləri ilə məşğul olmalıdır. Düşünürəm ki, bu, tamamilə ödənişli bir fransız qəzəbidir. Fransada çox beləsi var. Və onların "bədən hərəkətlərindən" nə isti olur, nə də soyuq. Onlar Qarabağda formalaşmış reallığı dəyişə bilməzlər.

**- Erməni Soyqırımı Günü ərəfəsində İrəvanda ənənəvi məşəl yürüşü keçirilib. Anladığımız qədər bunu Daşnaksütyun təmsilçisi, ötən il müxalifətə rəhbərlik etmiş müxalifətçi İşxan Saqatelyan təşkilatçı olub. Son bir həftə ərzində ikinci dəfə İrəvanın mərkəzi meydanında Azərbaycan və Türkiyə bayrağı yandırıldı...**

- Bu, necə deyərlər, "acizlikdir". Onların edə biləcəyi maksimum başqa dövlətin bayrağını korlamaqdır. Onlar artıq tarixi hadisələrin gedişatını dəyişə bilməzlər. Onlar Azərbaycanı nə sürətləndirə, nə də dayandıra bilərlər. Və belə hiylələrlə bir daha öz üzlərini- natamamlıqlarını, alçaqlıqlarını göstərdilər. Yeni bir reallıq gəldi, o, dönməzdir. Azərbaycan bu gün siyasət aparır, Ermənistan isə yelkən kimi izləyir- küləyin haradan əsməsindən asılı olaraq, öz siyasi prioritetlərinin vektorunu dəyişir. Azərbaycan sakit və inamla irəliləyir və qeyd-şərtsiz hörmətə layiqdir.

Cəmi 44 gündə İkinci Qarabağ müharibəsində qalib gələn Azərbaycan Prezidenti İlham Əliyev uğur nümunəsi kimi tarixə əbədi olaraq yazılacaqdır. Bununla bağlı dünya liderlərinin böyük əksəriyyəti tərəfindən Azərbaycana ancaq hörmət, onun nüfuzunun tanınması, xarici siyasətin düzgün həyata keçirilməsi ilə bağlı ifadələr səslənir. Hərbi nöqteyi-nəzərdən belə bir müharibədə 44 gündə qalib gəlmək fenomenaldır, şah əsərdir. Bu isə şəxsiyyət amilinin tarixdəki rolunu göstərir. 1990-cı illərdə Azərbaycanın böhranlı məqamında ölkəyə Heydər Əliyev başçılıq edirdi. İlham Əliyev onun işini davam etdirir. Azərbaycan xalqının və bütövlükdə Cənubi Qafqaz xalqının bəxti gətirib ki, Azərbaycanın belə lideri var. Regional və dünya sabitliyi nöqteyi-nəzərindən Azərbaycanın bu gün müasir dünyada, o cümlədən Qoşulmama Hərəkatının başında siyasi proseslərin proqnozlaşdırıla bilən və sabit inkişafında göstərdiyi səylərə qiymət verməliyik.

Rusiya Azərbaycanı dost dövlət hesab edir. İki dövlətin liderləri Müttəfiqlik Bəyannaməsini imzalayıblar, Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Yenə də deyirəm: Kremlin gözünə erməni eynəyi taxmaq cəhdləri uğurlu olmayacaq. Biz Rusiya-Azərbaycan münasibətlərinin gələcəyinə nikbin baxırıq. Azərbaycan Rusiyanın əsl, fürsətçi olmayan dostudur. Biz çalışacağıq ki, Rusiya və Azərbaycan xalqlarının mənafeyi naminə əlaqələrimiz daha da sıx inkişaf etsin.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"" istiqaməti çərçivəsində hazırlanıb.*

# Mövsümi meyvələr insan üçün nə dərəcədə zərərlidir?

*Dietoloq bir sıra məqamlara aydınlıq gətirdi*

***"Son zamanlarda mövsümi olmayan meyvələr bazarlarda alıcılara təklif olunur". Bu sözləri SİA-ya açıqlamasında dietoloq Sevinc Həsənzadə bildirib. Dietoloq qeyd edib ki, tələbat olduğu üçün satışa çıxarılan bu meyvələr, dərman və qatqılarla yetişdirilir: "Onlar sağlamlıq üçün zərərlidirmi? Amma onların zərərli və ya zərərsiz olmasından heç kəs xəbərdar deyil. Aprel ayı olmasına baxmayaraq, marketlərdə mövsümü olmayan meyvə-tərəvəzlərə rast gəlirik. Onların arasında çiyələk, alça, pomidor, xiyar, badımcan və sairə qeyd etmək olar.***



Amma hələ mövsümi olmayan xiyar, pomidor, bibərin tərkibindəki gübrələr orqanizmə ciddi zərər verə bilər. Hətta istixanalarda yox, təbii şəraitdə yetişmiş, amma gübrələnmiş tərəvəzlərin də zərəri bəllidir".

Dietoloq sözlərinə belə davam edib: " "Nitratlar - bitkilərin yetişməsini sürətləndirən kimyəvi maddələrdir. Özlüyündə zərərli olmayan bu maddələr orqanizmə çox miqdarda düşdükdə bağırsaq mikrobiotası tərəfindən fermentasiya olunaraq çox təhlükəli nitritlərə çevrilir ki, bunlar qanda hemoqlobini methemoqlobinə çevirir və toxumaların oksigenlə təchizatını əngəlləyir. Eyni zamanda, nitritlər həzm traktında güclü kanserogen olan nitrozaminlərə çevrilir".

Bəs, insan üçün, xüsusən də uşaqlar üçün çox zərərli olan bu maddələrin miqdarını necə azaltmaq olar? Həkim deyir ki, bunun üçün bir neçə praktik üsuldan yararlana bilərik:"

**1.** Tərəvəzləri təmiz yuyub bir müddət islaqda saxlamaq (bir neçə dəfə suyu dəyişməklə). Bu zaman onların bir hissəsi suya keçir.

**2.** Hər tərəvəzin nitratı daha çox toplama yeri olduğundan o hissəni kəsib atmaq. Məsələn,

- kartofun, xiyarın qabığını qalın soymaq (göyərmiş kartof və yerkökünü ümumiyyətlə atmaq);
- kələmin üst yarpaqlarını və özəyini atmaq;
- kök və çuğundurun, pomidorun içini atmaq;
- xiyar, turp, kabakın quyruq və baş hissəsini kəsmək;
- bostan göyərtilərinin yalnız yarpaqlarını istifadə etmək (iri zoğlarını atmaq) -yabanı göylərə aid deyil.

**3.** Suda bişirmək - nitratın xeyli hissəsi suya çıxır.

**4.** Salatlara alma sirkəsi və ya limon suyu sıxmaq - turşular nitratları nitritə çevrilməsini əngəlləyir.

**5.** Kələmin, digər tərəvəzlərin kifayət qədər (ən azı 8 gün) qıcqırdılması (həftəbecər) -bu vaxt əmələ gəlmiş nitritlər yenidən nitrata çevrilir.

**6.** Limonu, yapışqan (yağlı kimi) qabıqlı meyvələri soda ilə sürtmək;

**7.** Əsl mövsümü olan yabanı otlardan mütləq yararlanmaq (qutab, şorba, qovurmaq, kükü, dovğada). Bunlar - cincilim, əmənköməci, gicitkan, quşəppəyi, yemlik və s. Gündə bir dəfə onlardan istifadə qıt yaz rasionunu vitamin - mineral - liflə xeyli zənginləşdirir və digər tərəvəzlərə olan tələbatı azaldar .

**8.** Ən əsası, mövsümi olmayan, qış uzunu və erkən satışa çıxarılmış tərəvəzlərdən istifafə etməmək".

***Banuçiçək Hüseynli***

# Bakı metrosunda iş rejimi 2 saat uzadılacaq

***Aprelin 28-dən 30-dək keçiriləcək "Formula 1" üzrə Azərbaycan Qran-prisi ilə əlaqədar Bakı metropoliteninin iş rejimində dəyişiklik ediləcək. Paytaxtda təşkil olunan kütləvi tədbirlərlə əlaqədar müvafiq əməliyyat planı əsasında, yarışın keçiriləcəyi müddətdə metropolitendə gücləndirilmiş iş rejimi tətbiq olunacaq.***

Bakı Metropoliteninin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, yarışın keçiriləcəyi müddətdə nəzərdə tutulmuş kütləvi-mədəni proqramların başa çatacağı vaxtlar nəzərə alınaraq, aprelin 28-dən 29-na və 29-dan 30-na keçən gecə saat 02:00-a qədər metropoliten stansiyaları sərnişinlərin girişinə açıq olacaq. Aprelin 30-da bazar günü olsa da, qatarların hərəkəti "Həzi Aslanov-28 May" sahəsində 2,5 dəqiqəlik intervalla təşkil ediləcək.




Qeyd olunan tarixlərdə gün ərzində qatarların hərəkəti qış qrafikinin tələblərinə uyğun nizamlanacaq. Bununla belə, idman yarışı məkanlarına yaxın stansiyalar üçün müvafiq tədbirlər planına uyğunolaraq, hazır vəziyyətdə saxlanılan ehtiyat qatarlar ehtiyac yaranacağı təqdirdə xəttə buraxılacaq.

# Yumurtalar niyə kodlaşdırılır?




***"Yumurtaların kodlanması bir çox ölkələrdə tətbiq olunan metoddur. Bu kodlar yumurtanın keyfiyyəti haqqında bizə məlumat vermək üçün vurulur". Bu sözləri SİA-ya açıqlamasında qida mütəxəssisi Asim Vəliyev deyib.***

Onun sözlərinə görə, bu kodlaşdırma beynəlxalq təcrübədə qanuni bir məcburiyyətdir və kodlaşdırılmayan yumurtaların satın alınması tövsiyyə olunmur: "Kodlar istehsalçı ölkəni bildirmək üçün məsələn "TR" və ya "AZ" olaraq başlaya bilir. Daha sonra istehsal ili, kodu yazılır. Onun ardınca yumurtanın istehsal edildiyi müəssisənin qeydiyyat kodu yazılır. Bununla yanaşı kodların əvvəlində 0, 1, 2 və 3 saylarından biri yazılır. Məsələn, bu kodlar yumurta verən toyuğun qəfəsdəmi, açıq havadamı, gəzən toyuq olduğu barədə istehlakçıya məlumat əldə etmək imkanı verir. Həmçinin toyuqların qidalanmasında istifadə olunan yemlərin də keyfiyyəti barədə məlumat əldə etmiş oluruq".

Asim Vəliyev sözlərinə belə davam edib: ""0" ilə kodlanan yumurta orqanik istehsal olunan yumurtadır. İstifadə olunan yemlər də orqanik sertifikatlıdır və toyuqlara hər hansı bir hormon verilməyib deməkdir. "1" kodu sərbəst gəzən toyuq yumurtasının kodudur. Toyuq qəfəsdə və ya hində saxlanmayıb deməkdir. Qidalanmada istifadə olunan yemlər və hormonlar baxımından bir məhdudiyyət yoxdur.

"2" kodu hində saxlanılan toyuq yumurtası deməkdir. Hinlərdə toyuqların qismən də olsa gəzmək imkanı var və qəfəsə qoyulmayıb. Qidalanmada istifadə olunan yemlər və hormonlar baxımından bir məhdudiyyət yoxdur.

"3" ilə kodlanan yumurta isə ən ucuz qiymətə satılan və aşağı keyfiyyətli bir yumurta deməkdir. Qəfəsdə saxlanılan və heç gəzmək imkanı olmayan toyuqların yumurtasıdır və tamamilə sənaye üsulu istehsaldır.

Qidalanmada istifadə olunan yemlər və hormonlar baxımından bir məhdudiyyət yoxdur. Kodun altında isə istehsal tarixi yazılmalıdır. Bu tarixdən etibarən normal şəraitdə saxlanılan yumurta ən gec 28 gün ərzində istifadə olunmalıdır".

***Ayşən Vəli***

# May ayında hansı bürcləri şəxsi həyatlarında uğur gözləyir?



Astroloqlar May ayında romantik əhval-ruhiyyə, yeni duyğular və sevgi cəbhəsində hadisələr vəd edən üç bürcün adlarını sadalayıb.

Milli.Az astroloqların təqdim etdiyi siyahını təqdim edir.

**Oğlaq**

Oğlaqlar gələn ay romantik girdabın içinə girəcəklər. 2023-cü ilin may ayında onlar şəxsi həyatlarında yeni dövrə başlayacaqlar. Yalnız bir partnyorunuz varsa, münasibətlərdə yeni bir mərhələ mümkündür. Bəlkə də hansısa seçimdən əziyyət çəkəcəksiniz, amma burada dostların məsləhətinə deyil, yalnız ürəyinizə qulaq asmalısınız. Partnyorunuzla səmimi olun və sizi narahat edən hər şeyi dərhal söyləyin. Münaqişələrin və anlaşılmazlıqların sayı azalacaq və sevgidə xoşbəxtlik deyilən şeyi hiss edəcəksiniz.

**Balıq**

May ayında Balıqların həyatını yaxşılığa doğru dəyişdirəcək maraqlı insanla tanış olmaq şansı yüksəkdir və bu, ilk dəfədən olmaya bilər. Ona görə də həyatınızdakı yeni insanlara diqqətlə baxın. Ancaq ailəli Balıqlar keçmiş ehtiraslarını bir az itirmiş münasibətlərdə romantik əhval-ruhiyyənin yüksəlməsini hiss edəcəklər. Bəzən asan olmayacaq, çətin söhbətlər və situasiyalar yarana bilər, lakin onlar yalnız və yalnız birliyin möhkəmlənməsinə kömək edəcək. Nəhayət, Balıqlar heç bir xəbərdarlıq etmədən ruh yoldaşı ilə həll olunmamış bütün problemləri bağlaya və münasibətlərdən həzz ala biləcəklər.

**Şir**

May ayında Şiri yeni romantik təəssüratlar gözləyir. Hələn ay əhəmiyyətli görüşlər, sevgi macəraları və önəmli tarixlərlə yadda qalacaq. Cazibədar və seksual Şirlər başqalarının qəlbini fəth edəcək və bunun müqabilində yeni münasibət gözlənilir. Bunun ciddi bir şeyə çevriləcəyi dəqiq deyil, amma hər halda, bu, bir həzz dozası gətirəcək və sizi ruhlandıracaq. Ancaq bu bürcün ailəli nümayəndələri münasibətlərini durğun bir fasilədən çıxara biləcəklər. Bu, ümumi bir səfərə və ya ortaq bir işə də kömək edəcək



# Mərdəkanda marketdən 2 min manat oğurlanıb

Mərdəkanda marketdən oğurluq olub. Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, Mərdəkan qəsəbəsi ərazisində yerləşən marketlərin birindəki seyfdən 2000 manat pul, digər marketdən isə 60 manat dəyərində tütün məmulatı oğurlamaqda şübhəli bilinən paytaxt sakini Daşqın Məmmədov Xəzər Rayon Polis İdarəsinin 1-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində müəyyən olunaraq saxlanılıb. Xəzər Rayon Polis İdarəsində araşdırma aparılır.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**